Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 161 (8184) CÜMƏ, 26 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarla Azərbaycan bu il də "ən islahatçı ölkə" statusunu qoruyub saxlaya biləcək

Azərbaycan Dünya Bankının "Doing Business 2020" hesabatında "Biznesə başlama" meyarı üzrə cari ildə dünyanın ən yaxşıları sırasında yer almağı hədəfləyir. 2019-cu ilin hesabatına görə, bu meyarda dünyanın ən yaxşı onluğu sırasına daxil olan ölkəmiz cari ildə biznesə start verilməsi qaydalarında bir sıra yeniliklər tətbiq etməklə mövcud prosedurları daha da asanlaşdırıb.

Hazırda "Doing Business 2019" hesabatında Azərbaycan "Biznesə Başlama" indikatoru üzrə 190 ölkə arasında 9-cu yerdədir. "Doing Business 2019" hesabatında Azərbaycan üçün "Biznesə Başlama" indikatoru üzrə 3 prosedur, 3,5 gün və 18 manat xərc nəzərdə tutulub. Lakin 2019-cu ildə həyata keçirilmiş islahatlar nəticəsində biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib. Bu ildən hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi çox sadələşdirilib. İslahatlar nəticəsində prosedurların sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb. Bütün bunlar əlbəttə ki, Azərbaycanda biznesə başlama prosedurlarının əsaslı şəkildə sadələşdirildiyini bir daha təsdiqləyir.

Ölkəmizin bir sıra digər sahələrində olduğu kimi, vergi sahəsində də genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatlara 2018-ci ildə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasi çərçivəyə uyğun olaraq başlanılıb.

Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı məsələsinə gəlincə isə deyə bilərik ki, bu proses 2008-ci ildən "Bir pəncərə" prinsipi ilə nazirlik tərəfindən həyata keçirilir. 2012-ci ildən etibarən isə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı elektron formada həyata keçirilməyə başlanıb. 2018-ci ilin sonlarında "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda edilmiş dəyişikliklər ölkəmizdə sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində əlverişli mühitin formalaşmasına müsbət təsir göstərərək yeni rəqəmsal elektron qeydiyyat sisteminin qurulması ilə nəticələnib. Vergilər Nazirliyindən verilən məlumata əsasən, islahata qədər elektron qeydiyyat yalnız Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilən elektron imza və ya Asan Sertifikat Xidməti Mərkəzi tərəfindən verilən "Asan imza" vasitəsilə həyata keçirilirdi. Bu ilin əvvəlindən başlayaraq hüquqi şəxsin dövlət qeydiyyatı, ƏDV qeydiyyatı və bank hesabının açılması cəmi bir prosedurla icra olunur. Beləliklə, qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, həmçinin qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Yeni xidmətdən yararlanan istifadəçilər elektron imza olmadan "İnternet Vergi İdarəsi"nə daxil olaraq elektron qeydiyyat sistemində FİN kod və mobil nömrə ilə identifikasiyadan keçirlər.

Təbii ki, bu islahatlar vergi qanunvericiliyində sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan son dəyişikliklərin davamıdır və ölkədə biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Ardı 4-cü səh.

## Maldiv Respublikasının Prezidenti zati-aliləri cənab İbrahim Məhəmməd Solihə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Maldiv xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2019-cu il*

## Ağcabədi rayonunun Boyat-Biləyən-Hacılar-Qaraxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Boyat-Biləyən-Hacılar-Qaraxanlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,6 milyon (yeddi milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2019-cu il*

## "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya I və II Düzəlişlərin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya 2001-ci il 27 fevral tarixli I Düzəliş və 2004-cü il 4 iyun tarixli II Düzəliş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

## 25 illik tarix

**Ölkəmizdə gənclər və idman sahələrində dövlət siyasətini həyata keçirən Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəaliyyətə başlamasının 25-ci ili tamam olur. 25 il bir dövlət təsisatının fəaliyyəti üçün kifayət qədər əhəmiyyətli tarixdir. Bu illər ərzində əldə olunmuş təcrübənin, formalaşmış ənənələrin Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı dövrə təsadüf etməsi isə ikiqat qürur doğurur.**

Çünki Azərbaycanın müstəqillik tarixində bu dövlət qurumunun 25 illik fəaliyyətinin özünəməxsus yeri və rolu vardır.

### Gələcəyin təminatı

Gənclər və İdman Nazirliyi Ulu Öndər Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli fərmanı ilə yaradılmışdır. Müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsi, gənc nəslin yaradıcılıq potensialının, qüvvəsinin, bilik və bacarığının milli dövlət quruculuğuna, iqtisadi və sosial inkişaf proqramlarının reallaşdırılmasına yönəldilməsi, gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi nazirlik qarşısında əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Ardı 3-cü səh.

## Azərbaycan dünya sərgilərində nə sərgiləyir




Azərbaycan hər il onlarca beynəlxalq sərgiyə evsahibliyi edir. Bu sərgilər neft, qaz, nəqliyyat, tikinti, kənd təsərrüfatı, turizm, bir sözlə, iqtisadiyyatın bütün sahələrinə həsr olunur.

Əsasən Bakı Ekspo Mərkəzində keçirilən, çoxsaylı tamaşaçı cəlb edən həmin tədbirlərdə yeni əməkdaşlıq əlaqələri yaradılır, mühüm layihələrin təməli qoyulur. Eləcə də Azərbaycan dünyanın müxtəlif ölkələrində ayrı-ayrı sahələri əhatə edən sərgilərdə geniş çeşidli məhsullarla, zəngin ekspozisiyalarla təmsil olunur. Builki sərgilərdən bir neçəsini misal gətirmək kifayətdir.

Cari ilin may ayında ölkəmiz Çində keçirilən iki əhəmiyyətli sərginin iştirakçısı olub. Bunlardan biri Çinin Şandun vilayətinin Çindao şəhərində Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) təmsil olunan ölkələrin iştirak etdiyi beynəlxalq investisiya və ticarət sərgisidir. Sərgi ilə yanaşı, ŞƏT-in regional iqtisadi və ticarət əməkdaşlığı forumu da keçirilib.

Qeyd edək ki, liman şəhəri Çindaonun Çinin ŞƏT ölkələri ilə əlaqələrində rolu getdikcə artır. Ötən il Şanxay Əməkdaşlıq Təşkilatının zirvə görüşünə uğurlu evsahibliyindən sonra Çindaoda Çin-ŞƏT azad ticarət zonasının yaradılmasına başlanıb.

Ardı 6-cı səh.

## Dövlət dəstəyinin bəhrəsi

İndi respublikamızın hər yerində olduğu kimi, Tərtər rayonunda da kənd təsərrüfatı işlərinin qızğın çağıdır. Taxıl biçini davam edir, barama tədarükü başa çatmaq üzrədir, pambıq tarlaları becərilir.

Başqa sözlə, ölkə rəhbərinin kənd təsərrüfatında ənənəvi sahələrin inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələr Tərtər kəndlisinin konkret fəaliyyət proqramına çevrilmişdir. Dövlətin davamlı qayğısından güc alan tərtərli fermerlər mütərəqqi texnologiyaları, innovativ üsulları bacarıq və yaradıcılıqla tətbiq edirlər.

Pambıqçılıqda əvvəlki şöhrəti qaytarmaq üçün həyata keçirilən təşkilat-təsərrüfat tədbirləri gözlənilən nəticələri verməkdədir. 2017-ci ildə 8.420 ton "ağ qızıl" istehsal edən tarla bahadırları hər hektarın orta məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sırada qərar tutdular. Qazanılan nailiyyətdən arxayınlaşmayıb 2018-ci ildə 8.186.5 ton pambıq istehsal etdilər. 2014-2018-ci illərdə rayonda pambıq əkini sahələri 3.6 dəfə, məhsul istehsalı 4.2 dəfə, hər hektarın məhsuldarlığı 13.2 faiz artmışdır. Cari ilin məhsulu üçün isə 3.427 hektar sahədə pambıq əkilmişdir.

Ardı 4-cü səh.

## XV Avropa Gənclər Yay Olimpiya Festivalı




## 20-ci medal bayraqdardan gəldi

### Azərbaycan cüdoçuları ümidləri doğruldurlar



Artıq bir həftəyə yaxındır ki, paytaxtımız Avropa Gənclərinin idman mərkəzinə çevrilib. 14-18 yaşlı gənc idmançıların mübarizə apardığı yarışa ümumilikdə 48 Avropa ölkəsindən 3600-dən çox atlet və texniki nümayəndə heyəti qatıldığı, 12 arenada 10 idman növü üzrə keçirilən XV Avropa Gənclər Olimpiya Festivalına ümumilikdə 2500-dən çox könüllü cəlb olunub.

İdmançılarımız isə bu yarışda uğurla çıxış edərək onlara göstərilən etimadı doğruldurlar. Azərbaycan güləşçiləri bütün çəki dərəcələrində mübarizə aparmış, mötəbər idman yarışında ümumilikdə 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) əldə edərək tarixi qələbəyə imza atmışlar. Medal estafetini davam etdirən cüdoçularımız ilk yarış günündə 1 qızıl, 2 bürünc medal qazanıblar.

Ardı 7-ci səh.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048; № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1507-VQD nömrəli, 29 mart tarixli 1551-VQD nömrəli və 9 aprel tarixli 1562-VQD nömrəli qanunları) 221-ci maddəsinin 2-ci hissəsinin ikinci, üçüncü və dördüncü abzasları ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1607-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1607-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 221-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq, Dövlət Əməyin Mühafizəsi Fondunu bir ay müddətində təsis etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə Protokolun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə 2018-ci il iyulun 20-də Moskva şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 yanvar tarixli 118 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 yanvar tarixli 118 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 1, maddə 18; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2012, № 2, maddə 116; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə yaradılmış Birgə Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

"**Birgə Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri

**Birgə Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası Energetika nazirinin müavini

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Təhsil nazirinin müavini

Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Macarıstan Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984; 2007, № 6, maddə 562, № 10, maddə 938, № 12, maddə 1196; 2009, № 6, maddə 404, № 7, maddələr 507, 517; 2010, № 10, maddə 839; 2011, № 7, maddə 612; 2014, №11, maddə 1371; 2015, № 6, maddə 684, № 11, maddə 1296; 2016, № 3, maddə 405, № 11, maddə 1771; 2017, № 5, maddə 740, № 7, maddələr 1302, 1309, № 11, maddələr 1951, 1958; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) 12.2-ci maddəsində "dövlət zəmanəti üzrə borc öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq yaradılan məqsədli büdcə fonduna" sözləri "dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

# "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1605-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1605-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12, maddə 2523) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci maddədə "1.2-ci və 1.3-cü" sözləri "1.2 - 1.4-cü" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 1.4-cü maddə əlavə edilsin:

"1.4. Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dəftərxana ləvazimatlarının satınalınması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait birbaşa hakimlərin bank hesabına köçürülür. Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1658-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1658-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş qaydanı Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 1.4-cü maddəsinin ikinci cümləsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2019-cu il*

# Ali Baş Komandanın tapşırığı ilə hərbi hissələrin yoxlanılması davam edir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələri yoxlamaq məqsədilə cəbhəboyu zonada səfərdədir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən general-polkovnik Zakir Həsənova əməliyyat şəraiti barədə məruzə edilib. Sonra Müdafiə naziri bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, düşmənin ön mövqelərini müşahidə edib. Düşmənlə təmas xəttindəki vəziyyəti qiymətləndirən nazir Ali Baş Komandanın tapşırıqlarını və qarşıda duran vəzifələri şəxsi heyətə çatdırıb.

General-polkovnik Zakir Həsənov bölmələrin döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Sonda nazir çay süfrəsi arxasında şəxsi heyətlə söhbət aparıb.

# Sərhəd zastavalarında və sərhəd döyüş məntəqələrində xidmət edən şəxsi heyətlə görüş





Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Qoşunlarının Qazax və Ağstafa rayonları ərazisində hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.



DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Elçin Quliyev sərhəd zastavalarında və sərhəd döyüş məntəqələrində xidmət edən şəxsi heyətlə görüşüb, dövlət sərhədində sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması istiqamətində görülən işlərə baxış keçirib, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə tapşırıqlar verib.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 16 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 16 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



# 25 illik tarix

*Əvvəli 1-ci səh.*

Heydər Əliyevin ölkəmizin çətin günlərində xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından təxminən bir il sonra belə bir təsisatın yaradılmasına qərar verməsi isə heç də təsadüfi deyildi. Gəncliyin sağlam ruhda yetişməsi, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün çox mühüm bir məsələ idi. Gənclik cəmiyyətin aparıcı qüvvəsini təşkil etdiyindən mütərəqqi ideyalar, inkişaf və inteqrasiya hər zaman onlardan başlanır. Öz gənclərinə dəyər verən, onların fərdi inkişafına, potensiallarını reallaşdırmalarına dəstək olan dövlət, cəmiyyət, əslində bununla özünün xoşbəxt və firavan gələcəyini təmin edir. Ona görə də mükəmməl gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik kursunda hər zaman prioritet istiqamət idi. Hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyev Azərbaycan gəncliyi üçün yüzlərlə yeni tədris ocağının, gənclik mərkəzlərinin, hərbi məktəblərin açılmasına, gənclərin bilik və bacarıqlarının qiymətləndirilməsində ədalət meyarının qorunmasına, minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində müasir ixtisaslara yiyələnməsinə nail olmuşdu.

## Gəncliyin seçdiyi kurs

Əfsuslar olsun ki, ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan gəncliyinin həyatında çox çətin sınaqlar dövrü başlandı. Dövlət gənclər siyasəti, demək olar ki, unuduldu. Hakimiyyət iddiası ilə yaşayan qeyri-sağlam qüvvələrin gənclərdən öz məqsədləri üçün istifadə meyilləri baş qaldırdı. Müxtəlif qrupların hakimiyyət uğrunda çəkişmələrində yeniyetmələrin potensialından sui-istifadə halları gəncliyin mənəvi-psixoloji böhran vəziyyətinə düşməsinə, sabaha inamı itirməsinə gətirdi. Yalnız Heydər Əliyevin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra cəmiyyət həyatının bir çox sferaları kimi bu sahədə də vəziyyət kökündən dəyişdi. Bir məqamı xüsusi qeyd edək ki, bu qayıdışı ən çox arzulayan, ölkənin, xalqın üzləşdiyi böhranlı vəziyyətdən çıxmasından ötrü nicatı qüdrətli liderin zəngin dövlətçilik təcrübəsində görən böyük əhali qruplarından biri də elə məhz gənclərimiz idi.

Azərbaycan gəncliyinin arzu və ümidlərini həssaslıqla duyan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdışından sonra ilk böyük görüşünü də elə məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun “Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir” - sözləri hər kəsin həyat devizinə çevrildi.

1994-cü il iyulun 26-da yaradılmış Gənclər və İdman Nazirliyi də öz 25 illik fəaliyyəti ilə Azərbaycanın sağlam düşüncəli gənclərinin arzu və ümidlərinin ifadəçisi oldu. İstəklərini reallaşdıra bilmələri üçün onlara münbit şərait yaratmağa, ideyalarına meydan verməyə çalışdı. Bu nazirliyin yaradılması ilə dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Bu isə gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi.

## İnkişaf yollarında

1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi, 1997-ci ilin 2 fevralından isə həmin günün “Azərbaycan gəncləri günü” elan edilməsi də bu tarixin əlamətdar məqamlarındandır. O dövrlərdən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti ilə bağlı dəqiq, əsaslı konsepsiya müəyyən edilmiş, bu sahədə müasir dövrün ruhuna uyğun qanunvericilik bazası formalaşdırılmış, müvafiq dövlət proqramları qəbul edilərək uğurla icra olunmuşdur. Bütün bunlar isə Azərbaycan gəncliyinin sosiallaşmasına, ictimai fəallığının yüksəlməsinə, fərdi inkişafına, modernləşmə və eyni zamanda milli-mənəvi dəyərlər ruhunda təlim-tərbiyəsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir.

Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Əslində, Gənclər və İdman Nazirliyinin 25 illik fəaliyyət tarixinin çox böyük bir hissəsi həm də Prezident İlham Əliyevin adı ilə bağlıdır. İdmanın inkişaf etdirilməsi, onun kütləviliyinin artırılması məlumdur ki, hər bir ölkənin gənclər siyasətində çox önəmli rol oynayır. Hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilən cənab İlham Əliyev Azərbaycanı dünya idman arenasında tanıtmaq üçün ölkəmizdə olimpiya hərəkatının genişlənməsi prosesinin əsasını qoydu. Qısa müddət ərzində regionlarda onlarla yeni olimpiya idman kompleksləri tikilərək istifadəyə verildi. Azərbaycan Prezidentinin 30 avqust 2005-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Gəncliyi Dövlət Proqramı”nın icrası da ölkəmizin milli mənafeyinin təmin olunmasına, xalqımızın rifahı naminə gənclərin potensialından tam və düzgün istifadə məsələlərinə, onların faydalı məşğulluğuna, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsinə böyük töhfələri ilə tarixə yazıldı.

Azərbaycan Prezidentinin 2007-ci ili ölkəmizdə “Gənclər ili” elan etməsi də çox mühüm tarixi hadisə kimi dövlətimizin gənclərə göstərdiyi yüksək diqqət və qayğını əyani şəkildə təcəssüm etdirirdi. “Gənclər ili” ölkə həyatında yeniyetmə və gənclərin fəallığının artmasına böyük təkan oldu. Elə həmin il gənclərin xaricdə təhsil almasına dəstək verən müvafiq dövlət proqramının qəbulu da onlara geniş imkanlar yaratdı. Bu proqram çərçivəsində minlərlə gəncimiz dünyanın ən nüfuzlu təhsil ocaqlarında müasir ixtisaslara yiyələndi.

Ötən illər ərzində gənclərin təhsili ilə yanaşı, məşğulluğunun təmin olunması istiqamətində də mühüm addımlar atılmışdır. 2008-ci ilin sentyabrında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən, dünyanın yüzdən çox ölkəsindən 600-ə yaxın qonağın qatıldığı “Gənclərin məşğulluq sammitinə” evsahibliyi etməklə Azərbaycan məşğulluq probleminin aradan qaldırılması sahəsində görülən işləri qürurla ortaya qoydu.

Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi “Azərbaycan Gəncliyi Dövlət Proqramı” (2005-2009-cu illər) və “Azərbaycan Gəncliyi (2011-2015-ci illərdə) Dövlət Proqramı”, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”, “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)”, “2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı”, “2007-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı” və bir sıra digər mühüm dövlət sənədləri gəncliyə diqqət və qayğının bariz təzahürüdür.

## İdman ölkəsi

Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən, “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu” yaradılıb. Bu fond Azərbaycanın gələcəyi, həmçinin bu gələcəyin qarantı olan gənclər üçün açılmış gözəl bir imkandır. Fəaliyyət göstərdiyi illər ərzində fondun gördüyü işlərə nəzər salanda, doğrudan da, müxtəlif sferalar üzrə ardıcıl, uğurlu və dinamik bir inkişafın baş verdiyinə şahid oluruq.

Cənab İlham Əliyevin davamlı səyləri nəticəsində ölkəmiz artıq dünyanın qabaqcıl idman dövlətlərindən birinə çevrilib. Ötən illər ərzində Azərbaycanın nüfuzlu beynəlxalq idman yarışlarına uğurla evsahibliyi etməsi bunun sübutudur. Son onilliklərdə ölkəmizdə idmanın müxtəlif növləri üzrə çoxsaylı beynəlxalq tədbirlər keçirilib. Bədii gimnastika üzrə 27-ci dünya çempionatı (2005), Bədii gimnastika üzrə 25-ci Avropa çempionatı (2009), Qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı (2010), Cüdo üzrə kişilər arasında dünya kuboku (2011), Boks üzrə dünya çempionatı (2011), 17 yaşlı qızlar arasında futbol üzrə dünya çempionatı (2012) və s. bu tədbirlərin hələ yalnız müəyyən bir hissəsidir. Ümumdünya Şahmat Olimpiadası (2016) və 2016-cı ildən başlayaraq hər il Bakıda keçirilən “Formula-1” üzrə Qran-pri yarışları, bu ilin mayında paytaxtımızın evsahibliyi etdiyi futbol üzrə UEFA Avropa Liqasının final oyunu və digər möhtəşəm idman tədbirləri ilə sıranı daha da genişləndirmək olar.

## Universal dəyərlərin təbliği

Bu kontekstdə ən əlamətdar hadisə isə I Avropa Oyunlarının 2015-ci ildə ölkəmizdə təşkili idi. 12-28 iyun 2015-ci il tarixlərində baş tutmuş Avropa Oyunlarında 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı yarışırdı. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın tədbirin təşkili üçün cəmi iki il yarım vaxtı olmasına baxmayaraq oyunların yüksək səviyyədə keçirilməsi üçün bütün hazırlıq işləri vaxtında tamamlandı, ən mütərəqqi idman standartlarına cavab verən infrastruktur yaradıldı və nəticə etibarilə dünya möhtəşəm beynəlxalq idman yarışının şahidi oldu.

Ölkəmiz bu uğuru 2017-ci ilin 12-22 may tarixləri arasında paytaxtımızda keçirilən çoxmillətli, multiidman turnirində - IV İslam Həmrəyliyi Oyunlarında da davam etdirdi. Qeyri-rəsmi şəkildə “Bakı 2017 İslam Həmrəyliyi Oyunları” kimi tanınan bu möhtəşəm tədbir də dünyanın idman tarixində Azərbaycanın adı ilə bağlı yeni bir parlaq səhifə açdı. Bakıda keçirilmiş I Avropa Oyunları, həmçinin 2017-ci ildə baş tutmuş IV İslam Həmrəyliyi Oyunları Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən Azərbaycanın idman üzrə universal dəyərlərinin, dünyada sülhün, tolerantlığın və qarşılıqlı anlaşmanın təşviqinə və təbliğinə verdiyi böyük töhfələri nümayiş etdirdi. Bu ayın 20-dən 28-ə qədər Bakıda start götürmüş Avropa Yeniyetmələrinin XV Yay Olimpiya Festivalı da eyni missiyanın davamıdır. Bu festivala qatılmaq üçün ümumilikdə 50 Avropa ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti ölkəmizə təşrif buyurub. Yarışlar 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçirilir.

Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını tanıtmaq və Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədilə Avropa Olimpiya Komitəsinin sabiq prezidenti Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülüb və idman dünyasının kifayət qədər əhəmiyyətli tədbirlərindən sayılır. Belə bir möhtəşəm festivala ev sahibi kimi Azərbaycanın seçilməsi də beynəlxalq aləmdə ölkəmizə verilən yüksək dəyərin ifadəsidir.

Azərbaycan Respublikası idman sahəsində əsas beynəlxalq sənədlərə qoşulub. Azərbaycan gəncliyinin beynəlxalq gənclər hərəkatına inteqrasiyası sahəsində də böyük uğurlar əldə edilib. Respublikamızdakı gənclər təşkilatları BMT-nin, UNESKO-nun, Avropa Şurasının, Avropa Birliyinin və s. beynəlxalq qurumların gənclər proqramlarına qoşulur, birgə layihələrdə iştirak edir, MDB və digər ölkələrin gəncləri ilə müntəzəm tədbirlər keçirirlər. Bu tədbirlərin bir qismi Bakıda təşkil olunub. Avropa Gənclər Forumunun Üzv Təşkilatları Şurasının iclasını (27-28 aprel 2007-ci il), “Avropa Şurasının Avropa Gənclər Fondu və fondun yeni fəaliyyət sistemi haqqında gənclər təşkilatlarının məlumatlandırılması” mövzusunda seminarı (14 may 2013-cü il), AŞ-nin İdmanla bağlı Genişləndirilmiş Hissəvi Sazişinin İcraiyyə Şurasının və Məşvərət Komitəsinin iclaslarını (25-27 may 2009), AŞ İdmana məsul nazirlərin 18-ci Qeyri-Formal Konfransını (22 sentyabr 2010-cu il), BMT Baş katibinin gənclər siyasəti üzrə elçisi, BMT İnkişaf Proqramı, UNESKO, AŞ və Azərbaycan Hökuməti tərəfindən birgə təşkil edilmiş Gənclər siyasəti üzrə birinci Qlobal Forumunu (28-30 oktyabr 2014-cü il) və digərlərini buna nümunə göstərmək olar.

## Könüllülər hərəkatı

Azərbaycan Respublikası gənclər siyasətinin əsas istiqamətlərindən birini də xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, ictimai-siyasi fəallığının artırılması, diaspor quruculuğu və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına yaxından cəlb edilməsi təşkil edir. Hazırda ölkəmizdə 300-dən artıq gənclər təşkilatı var. Bu təşkilatların nümayəndələri, ayrı-ayrı gənclərimiz beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırlar. Bu, cəmiyyətimizdə aparılan vətənpərvərlik tərbiyəsinin, gənclərdə aşılanan milli ruhun uğurudur.

Son illərdə ölkəmizin evsahibliyi etdiyi “Eurovision-2012” mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, “Formula -1” və digər mötəbər tədbirlər, eləcə də bu gün bütün dünyada Azərbaycan brendi kimi tanınan “ASAN xidmət” kimi innovativ platformalar Azərbaycanın dövlət gənclər siyasəti sahəsində yeni bir başlanğıcın əsasını qoydu. Bu, ölkəmizdə könüllülük hərəkatının geniş vüsət alması dövrüdür. Respublikada keçirilən beynəlxalq idman və mədəniyyət tədbirlərinə indiyə qədər on minlərlə könüllü cəlb olunub. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda təcrübəli könüllü bazası formalaşıb. Könüllü hərəkatının formalaşmasında, uğur qazanmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolu danılmazdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyəti yüksək və professional səviyyədə təşkil edilmişdir.

2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin sərəncamı ilə növbəti “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdir. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir.

## Azərbaycan gənci - layiqli vətəndaş

Cənab İlham Əliyevin Azərbaycan Gənclərinin ötən ilin noyabrında keçirilmiş VIII Forumunun iştirakçılarına təbrik məktubunda da qeyd edildiyi kimi, bu gün Azərbaycan gənci layiqli vətəndaş kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərir, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artması, siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfə verir. Gənclər ölkəmizi beynəlxalq arenada da layiqincə təmsil edir, ictimai diplomatiyanın genişlənməsində, xarici həmyaşıdları ilə əlaqələrin qurulmasında səylərini əsirgəmir, Azərbaycanın milli mənafeyini yüksək tuturlar.

**Qürur duyuruq ki, bütün bu inkişaf proseslərində, möhtəşəm tarixdə 25 illik fəaliyyəti ilə Gənclər və İdman Nazirliyinin də adı, xidməti var. Dövlət rəhbərinin müəyyən etdiyi gənclər, bədən tərbiyəsi və idman siyasətinin öz milli hədəflərinə çatmasında, Azərbaycan gəncliyinin timsalında ölkəmizin parlaq gələcəyinin təmin olunmasında hər birimiz bundan sonra da əzmkarlıq göstərməyə, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq.**

**Azad RƏHİMOV,**
***Azərbaycan Respublikasının Gənclər və İdman naziri***

# Qaxda “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda konfrans keçirilib






Bu gün Azərbaycanda dövlət-din münasibətlərinin mövcud səviyyəsi ən yaxşı model kimi qiymətləndirilir. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı nəticəsində ölkəmizdə dövlət-din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Dövlət dini qurumlar və dini icmalar arasında münasibətlərin sağlam əməkdaşlıq və tolerantlıq əsasında qurulması işinə yardım edir. Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyulun 25-də Qax şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda konfransda səsləndirilib.

Dövlət Komitəsinin və rayon icra hakimiyyətinin rəhbər şəxslərinin, yerli hüquq mühafizə orqanlarının rəhbərlərinin, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri konfransda ölkəmizdə dini sahəyə, milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğıdan, dini sabitliyin qorunub saxlanılması sahəsində görülməsi vacib olan məsələlərdən geniş bəhs olunub.

Konfransın əvvəlində azərbaycançılıq ideologiyasına həsr olunan sənədli film nümayiş etdirilib.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev konfransda çıxış edərək rayondakı mövcud dini durum barədə məlumat verib. Bildirib ki, Qax rayonu Azərbaycanda müxtəlif xalqların, icmaların birgə yaşadığı ən nümunəvi bölgələrdən biridir. Ölkənin hər yerində yaşanan dinamik inkişaf Qax rayonunun simasında da aydın müşahidə olunur. Diqqətə çatdırıb ki, hazırda rayonda 11-i müsəlman, 2-si qeyri-müsəlman olmaqla, 13 dini icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınıb. Dini icmalarla qarşılıqlı münasibətlərin formalaşması nəticəsində rayonda dini durum sabitdir, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün davamlı tədbirlər həyata keçirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərinin təşviqi, dini maarifçilik işinin aparılması, dini radikalizmlə mübarizə sahəsində görülən işlər barədə danışıb.

Müasir dünyanın özünəməxsus çağırışları olduğunu diqqətə çatdıran Mübariz Qurbanlı bildirib ki, həmin çağırışlarla bağlı BMT dünyanın 20-dək problemini müəyyən edib. Onların içərisində demoqrafiya, ekologiya, nüvə müharibəsi təhlükəsi, iqlim dəyişkənliyi ilə bağlı və digər problemlər ön sıralarda yer alır.

Çağdaş dünya üçün ən ciddi təhdidlərdən birinin terror və ekstremizm olduğunu bildirən komitə sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. Diqqətə çatdırıb ki, hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə soyuq müharibə illərindəki ideoloji toqquşmanı əvəz edib.

Bildirilib ki, heç bir din radikallığa çağırış edə bilməz. Həm islamın, həm də xristianlığın və yəhudiliyin müqəddəs kitablarında insanlar birliyə, sülhə, əmin-amanlığa çağırılır. Amma bu gün dünyada din adı altında terrorlar törədilir, qarşıdurmalar yaradılır. İnsanların din adı ilə bir-birini qırması, terrorlar törətməsi cəhalətin nəticəsidir.

Ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınması olduğunu vurğulayıb. İnsanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu bildirən Mübariz Qurbanlı bu kimi xoşagəlməz halların qarşısının alınması istiqamətində bütün bölgələrdə kompleks tədbirlərin həyata keçirildiyini söyləyib.

Konfransın sonunda Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Əsgərov çıxış edərək regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rola malik olduğunu bildirib.

# Ölkəmizdə yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır

Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunun Horadiz şəhərində sakinlərlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin müavini Bahar Muradova, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev və ictimaiyyət nümayəndələri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.



Heydər Əliyev Mərkəzində keçirilən görüşdə Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək rayonda gedən sosial-iqtisadi inkişafdan, həyata keçirilən tikinti-quruculuq işlərindən, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən, məcburi köçkünlərə, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışıb.

Milli Məclis Sədrinin müavini Bahar Muradova Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra qazanılan uğurlardan söz açıb, respublikamızda bütün sahələrdə əldə edilən nailiyyətlərin təməlində Heydər Əliyev ideyalarının dayandığını, Ulu Öndərin dövlətçilik siyasətinin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, müstəqil Azərbaycan qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyir. Azərbaycan öz tarixinin şərəfli bir dövrünü yaşayır. Azərbaycan dövlət olaraq çox güclü, xalq olaraq inamlıdır.

Bahar Muradova Prezident İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində cari ildə imzalanan sərəncamlardan bəhs edərkən bildirib ki, atılan addımlar sosial inqilab xarakteri daşıyır. Ölkəmizdə yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Azərbaycanda ordu quruculuğu sahəsində görülən işləri diqqətə çatdıran Bahar Muradova 1994-cü ilin uğurlu Horadiz əməliyyatından və 2016-cı ilin Aprel zəfərindən danışıb. Azərbaycan Ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlərə qadir və hazır olduğunu bildirib. O, Lələtəpə yüksəkliyində ucaldılan üçrəngli bayrağımızın hazırda işğal altında olan bütün torpaqlarımızda dalğalanacağına əminliyini ifadə edib.

Yığıncaqda çıxış edən rayon sakinləri Prezident İlham Əliyevin islahatlar kursunu dəstəklədiklərini vurğulayaraq bütün sahələrə, xüsusən qaçqın və məcburi köçkünlərə göstərilən qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

İştirakçılar sonda Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin sözlərinə Azad Zahidin yazdığı “Horadiz halayı” musiqi əsərinin klipinə baxıblar.

# ADA Universitetində Sosial Tədqiqatlar Mərkəzinin kollektivi ilə görüş

ADA Universitetində Sosial Tədqiqatlar Mərkəzinin (STM) kollektivi ilə görüş keçirilib. Mərkəzdən AZƏRTAC-a bildirilib ki, görüşdə STM İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc rəhbərlik etdiyi qurumun missiyası, vəzifələri, fəaliyyət istiqamətləri və formalaşmaqda olan kollektivi haqqında ətraflı məlumat verib.



Qeyd edib ki, Prezident İlham Əliyev ölkədə dövlət-vətəndaş münasibətlərinin daha da təkmilləşməsinin vacibliyini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında fərman imzalayıb. Dövlət başçısı Azərbaycanda cəmiyyət və dövlət arasında mövcud olan etimad və dialoqun möhkəmləndirilməsinin başlıca istiqamətlərindən olan ictimai rəy institutunun ən müasir dünya təcrübəsi əsasında formalaşdırılmasını, bu sahənin elmi ənənəyə çevrilməsini zəruri hesab edib. İctimai rəy nümunəsində dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb olunması STM-in görəcəyi işlərin əsas xəttini təşkil edəcək.

ADA Universitetinin rektoru, Xarici İşlər Nazirinin müavini, səfir Hafiz Paşayev istənilən sahədə yeni fəaliyyət qurulmasının çətin, eyni zamanda, şərəfli olduğunu vurğulayıb. Rektor bu sahədə ADA Universitetinin keçdiyi yol və əldə etdiyi təcrübə haqqında fikirlərini bölüşüb, peşəkar kadrların cəlb edilməsinin, tədqiqatçı kollektivin formalaşmasının vacibliyini vurğulayıb.

Hafiz Paşayev cəmiyyət həyatında müxtəlif sahələrin uğurlu inkişafının müəyyən edilməsində ilk olaraq ictimai rəyin öyrənilməsinin vacibliyini vurğulayıb. Bu baxımdan kadr hazırlığında ən fundamental sosial institut olan təhsil sahəsinin strateji istiqamət kimi diqqət mərkəzində saxlanılmasını tövsiyə edib. ADA Universitetində təhsillə bağlı sosioloji sorğulara böyük əhəmiyyət verildiyini, bəzi mövzular üzrə universitetdaxili ictimai rəy sorğuları keçirildiyini diqqətə çatdırıb.

Hafiz Paşayev Azərbaycanda kadr hazırlığında, məktəbli və gənclərin gələcək peşə, ixtisas seçimində təhsil mühitinin əvəzsiz rolunu qeyd edib. Qabaqcıl dünya təcrübəsində ixtisas seçiminin məktəb yaşlarından: zamanın çağırışlarını nəzərə almaqla, ilk növbədə, istedad və qabiliyyəti aşkara çıxarmağa imkan verən təhsil/məktəb mühitinin formalaşdığını vurğulayıb. ADA Universitetinin rektoru STM-lə bu istiqamətdə birgə tədqiqat layihəsinin həyata keçirilməsini də tövsiyə edib.

Görüşdə rektor Hafiz Paşayev STM əməkdaşlarının suallarını cavablandırıb, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

# Mətbuat cəmiyyətin diqqətindədir

Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi İctimai Birliyi “Loqos”la birgə Milli Mətbuat Günü münasibətilə tədbir keçirib.

Tədbirdə Mətbuat Şurasının rəhbəri, Milli Məclisin deputatı Əflatun Amaşov, YAP Siyasi Şurasının üzvi, “İki sahil”qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, AYB-nin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, şair Vaqif Bəhmənli, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri, Əməkdar jurnalist Umud Mirzəyev və digər media nümayəndələri iştirak ediblər.

“Loqos”un rəhbəri Təranə Məmmədova məclisi açaraq media nümayəndələrini təbrik etdi və daim göstərdikləri dəstəyə görə minnətdarlığını bildirdi.

Mətbuat Şurasının rəhbəri Əflatun Amaşov qeyd etdi ki, dövlət müstəqilliyinin əldə edilməsi Azərbaycan mətbuatının tarixində söz azadlığının təminatında, KİV-in inkişafında böyük tarixi dövr kimi qiymətləndirilməlidir. Bu gün Azərbaycan jurnalistikasında çalışan jurnalistlərin həyat və fəaliyyət devizi cəmiyyətdə azad sözün nüfuzunu artırmaq, demokratik inkişafa yardımçı olmaqdır.

Ən yaxşı və fərqlənən media nümayəndələrinə Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi tərəfindən fəxri fərmanlar təqdim edildi.

Cəbrayıl şəhər uşaq musiqi məktəbinin “Qarabağ” instrumental ansanblı və “Nurlan” rəqs qrupunun ifaları tədbir iştirakçılarında xoş əhvali-ruhiyyə yaratdı.

***“Azərbaycan”***

# Müdafiə naziri hərbi təyyarənin qəzaya uğraması ilə əlaqədar yaradılan əməliyyat qərargahında olub



Müdafiə Nazirliyinin rəhbərliyi, aidiyyəti qurumların və xidmətlərin nümayəndələrindən ibarət qrup qəzanın səbəblərinin araşdırılması və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılan əməliyyat qərargahında olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Nazir digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyətin davam etdirilməsi barədə müvafiq göstəriş verib.

# “Milli mətbuat-milli düşüncə”



*İyulun 24-də Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunmuş “Milli mətbuat - milli düşüncə” mövzusunda konfrans keçirilib. Konfransda çıxış edən fondun icraçı direktorunun müavini Rəfi Qurbanov ölkəmizdə fəaliyyət göstərən mətbuat nümayəndələrini peşə bayramı münasibətilə təbrik edib. O bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunmasında, təbliği və gələcək nəsillərə çatdırılmasında mətbuatımızın rolu danılmazdır. “Əkinçi” qəzetindən başlayan söz və ifadə azadlığı bizə “Füyuzat”la dəyərlərimizə hörməti, “Molla Nəsrəddin”lə sağlam tənqidi öyrətdi.*

Bu mənada milli mətbuatın yaranması milli kimliyimizin formalaşmasında xüsusi rola malikdir. Söz və ifadə azadlığının tərənnümü olan mətbuat bu gün fundamental dəyərlərin təbliğində yaxından iştirak edir. Bu sahədə dövlətin həyata keçirdiyi siyasətə toxunan R.Qurbanov diqqətə çatdırıb ki, dini, irqi ayrı-seçkiliyi təbliğ edənlər, nifrət aşılayanlar anlamalıdırlar ki, bu hərəkətlərin qanun çərçivəsində qadağan olunması tarixən çulğalaşan dəyərlərimizin qorunmasına xidmət edir.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, 144 yaşlı milli mətbuatımız ötən zaman ərzində böyük inkişaf yolu keçib. Bu gün mətbuata dövlət tərəfindən xüsusi diqqət və qayğının göstərilməsi, eyni zamanda, söz, fikir və özünüifadə azadlığının ən yüksək səviyyədə təsbit edilməsi, mətbuatın maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, media institutunda təmsil olunan şəxslərin səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və digər bu kimi amillər milli mətbuatımızın inkişafını şərtləndirən fundamental məsələlər kimi dəyərləndirilməlidir.

“SƏS” İnformasiya Agentliyinin icraçı direktoru Vəli Vəliyev bildirib ki, milli mətbuatımızın “Əkinçi”dən bugünə qədər keçdiyi yol keşməkeşli və şərəflidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi, bu gün ölkədə azad, demokratik və güclü mətbuat var. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanda müstəqil mətbuatın inkişafından bəhs edərkən ilk olaraq Ulu Öndərin 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmir edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı ilə mətbuatın üzərindən senzuranın götürülməsi qeyd edilir. Təbii ki, senzuranın mövcudluğu şəraitində mətbuatın müstəqilliyindən danışmaq qeyri-mümkün idi. Bu qətiyyətli addım yeni müstəqil medianın fəaliyyəti üçün geniş imkanlar açdı.

Azərbaycan mətbuatının əsas inkişaf dövrünün ölkənin müstəqilliyinin ilk illərinə təsadüf etdiyini bildirən “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli diqqətə çatdırıb ki, 1990-cı illərin əvvəllərində yeni qəzetlərin nəşri prosesi ilə jurnalistikada keçid mərhələsi başladı. Azərbaycan mediası 1993-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoydu.

Sonda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən media nümayəndələri arasında elan olunmuş “Milli mətbuat - milli düşüncə” mövzusunda məqalə müsabiqəsinin qaliblləri mükafatlandırılıb.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycan HHQ-nin təyyarəsi təlim-məşq uçuşları zamanı qəzaya uğrayıb

İyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq, gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin ehtimala görə aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb.

Pilotun axtarışı və xilas edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiya qəzanın səbəblərinin araşdırılmasına başlayıb.

# Hərbi Prokurorluq HHQ-nin təyyarəsinin qəzaya uğraması ilə bağlı məlumat yayıb

İyulun 25-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğu Azərbaycan Hərbi Hava Qüvvələrinin təyyarəsinin təlim-məşq uçuşları zamanı qəzaya uğraması ilə bağlı məlumat yayıb.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə Nazirliyinin məlumat yaydığı hadisə ilə əlaqədar Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 342.2-ci maddəsi ilə cinayət işi başlanılıb, Hərbi Prokurorluğun təcrübəli və peşəkar işçilərindən ibarət istintaq qrupu yaradılıb. Hazırda Hərbi Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisinin rəhbərlik etdiyi qrup tərəfindən hadisənin baş verməsinin səbəb və şəraitinin, işin bütün hallarının araşdırılması istiqamətində zəruri istintaq hərəkətlərinin icrası intensiv davam etdirilir.

Bildirilir ki, hadisə yerinin müəyyən olunaraq baxış keçirilməsi, iş üçün əhəmiyyət kəsb edən predmetlərin götürülməsi, hadisə şahidlərinin dairəsinin müəyyənləşdirilərək dindirilməsi, müvafiq ekspertizaların keçirilməsi və eləcə də digər zəruri istintaq hərəkətlərinin icrası təmin edilməklə qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlər görüləcək.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev də istintaq qrupu ilə birlikdə hadisə yerinə gedib.

# Yeni uğurlara doğru...

## Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarla Azərbaycan bu il də “ən islahatçı ölkə” statusunu qoruyub saxlaya biləcək

***Əvvəli 1-ci səh.***

Son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu islahatlar, biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, “yaşıl dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə” sistemi, biznesə başlama, elektrik təchizatı şəbəkələrinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm islahatlar aparılıb.

Dövlət başçısı islahatların nəticələrini dəyərləndirərkən bildirmişdir ki, bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. İslahatların nəticələri göz önündədir, xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük irəliləyişə, müsbətə doğru dəyişikliklərə səbəb olur.

Bu isə onu deməyə əsas verir ki, aparılmış islahatlar ölkəmizin “Doing Business” hesabatında mövqelərinə müsbət təsir edəcək, Azərbaycan bu il də “ən islahatçı ölkə” statusunu qoruyub saxlaya biləcək. Xatırladaq ki, “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunmuşdu. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmışdı. Hesabatda deyilirdi ki, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib.

Bu ilin əvvəlində isə ABŞ-ın tanınmış “The Heritage Foundation” analitik mərkəzi tərəfindən hazırlanan “İqtisadi Azadlıq İndeksi-2019”da Azərbaycan ən böyük irəliləyiş edən ölkə kimi təqdim olundu.

Göründüyü kimi, İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətlə bu gün Azərbaycanda mövcud olan iqtisadi müstəqillik siyasi müstəqilliyin və genişmiqyaslı inkişafın təminatçısıdır. Son illərdə aparılan böyük islahatlar getdikcə daha da dərinləşir və bu həm də Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə xidmət edir. Ölkəmiz beynəlxalq reytinq təşkilatlarının hazırladıqları illik hesabatlarda ilk yerlərdə qərarlaşır. Bütün bunlar isə beynəlxalq birliyin Prezident İlham Əliyevin islahatlarına verdiyi qiymətin təzahürüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Dövlət dəstəyinin bəhrəsi

***Əvvəli 1-ci səh.***

İndi tarlalarda üçüncü kompleks becərmə aparılır. Xəstəlik və zərərvericilərə qarşı aparılan keyfiyyətli mübarizə, tarlalara norma əsasında yemləmə gübrəsinin verilməsi, becərmədə mütərəqqi üsulların səmərəli tətbiqi bitkilərin sürətli inkişafını təmin edir, kollar yavaş-yavaş bara dolur. Fazil Vəliyevin, Habil İbrahimovun, İlkin Qurbanovun, Miri Rzayevin rəhbərlik etdikləri fermer təsərrüfatlarında həmişə olduğu kimi yenə də bol məhsul gözlənilir.

Buğda və şəkər çuğunduru istehsalını artırmaq üçün də Tərtər əkinçiləri bu il inamla çalışırlar. Cari ildə rayonun təsərrüfatlarında 10.908 hektar sahədə bol taxıl yetişdirilmişdir. Məhsulun tez və itkisiz yığılması üçün bütün qüvvələr səfərbər edilmişdir. Rayon icra hakimiyyətində fəaliyyət göstərən operativ qərargah biçinin mütəşəkkil keçirilməsi üçün zəruri tədbirlər görür. İndiyədək 9 min hektardan çox sahənin məhsulu biçilmişdir. Hələlik hər hektarın orta məhsuldarlığı 37 sentnerdən çoxdur. Fərman Qurbanovun, Mirzə Cümşüdovun, Asəf Mehdiyevin və Fazil Vəliyevin fermer təsərrüfatında isə məhsuldarlıq daha yüksəkdir - orta hesabla 45-50 sentner.

Ənənəvi kənd təsərrüfatı sahələrindən olan baramaçılığın inkişafına da böyük önəm verilir. Baramaçılığın inkişaf etdirilməsi üçün son üç il ərzində rayonun təsərrüfatlarında 223 mindən çox çəkil əkilmişdir. Keçən il 10.2 ton barama istehsal edən rayon kümçülərinin builki hədəfi 20 tondur. Məqsədə çatmaq üçün zəruri tədbirlər görülmüş, 500 qutu ipək qurdu bəslənilmiş, bol barama yetişdirilmişdir. İndiyədək “Azəripək” MMC-yə 15 tondan çox barama təhvil verilmişdir. Qazanılan nailiyyətdə təcrübəli kümçülər Yaşar Mirzəyevin, Cümşüd Həsənovun, İldırım Bayramovun və başqalarının payı daha çoxdur. Hazırda barama tədarükü davam edir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Vətəndaşların qəbulu keçirilib

AZƏRTAC xəbər verir ki, iyulun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qaxda vətəndaşları qəbul edib.

Qax şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

* * *

Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov Neftçala şəhərindəki Vergiödəyicilərinə Xidmət Mərkəzində vətəndaşları qəbul edib.

Nazirliyin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda Neftçala, Hacıqabul, Sabirabad, Saatlı və Salyan rayonlarının sakinləri iştirak ediblər. Onların müraciətlərində vergi qanunvericiliyi və inzibatçılığının tətbiqi, vergilərin hesablanması və ödənilməsi, vergi nəzarəti tədbirlərinin nəticələri, uçot, vergi orqanlarında işlə təminat və digər məsələlər əhatə olunub.

Vətəndaşların müraciətləri dinlənilib, bəziləri yerində həll olunub, digər məsələlər barədə nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Türkiyə vətəndaşları üçün bu il sentyabrın 1-dən etibarən viza tələbini ləğv edir

Xarici İşlər Nazirliyi Azərbaycanla Türkiyə arasında viza rejiminin ləğvi ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda xalqlarımız arasında ortaq etnik-mədəni, tarixi köklərə, qardaşlıq və dostluq, həmrəyliyə söykənən Azərbaycan-Türkiyə əlaqələrinin Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamına uyğun olaraq ən yüksək səviyyədə olduğu bildirilir.

Qeyd edilir ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir. Hərtərəfli inkişaf edən Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ölkələrimiz arasında viza sahəsində əməkdaşlığın dəyərləndirilməsi və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirir. Bu baxımdan, Azərbaycan Respublikasına 30 günədək müddətə səfər etmək istəyən Türkiyə Respublikasının ümumvətəndaş pasportuna malik vətəndaşları üçün 1 sentyabr 2019-cu il tarixindən etibarən viza tələbi ləğv edilir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota ünvanlanıb.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikası ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə Respublikası vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir. Türkiyə Respublikası hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan Respublikası vətəndaşları viza tələbindən azad edilmişdi.

Viza tələbinin ləğvi qərarı Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin yüksələn xətlə inkişafına növbəti əsaslı töhfə olacaq.

# “Jara-2019” festivalının iştirakçıları qırmızı xalı üzərindən keçiblər

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın fəxri qonaqları arasında olub

İyulun 25-də Bakıda “Sea Breeze Resort” istirahət mərkəzində “Jara-2019” Beynəlxalq Musiqi Festivalı iştirakçılarının qırmızı xalı üzərindən keçidi olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Jara-2019”un fəxri qonaqları arasında olub. Aparıcının “Musiqi dünyanı daha gözəl edir. Necə fikirləşirsiniz, bu il daha yaxşı olacaq?” sualına cavabında Leyla Əliyeva deyib:







- Fikrimcə, ildən-ilə daha yaxşı olur. Dünya yaxşılaşır. İnşallah, hər şey həddən artıq yaxşı olacaq.

**Aparıcı:** Çox sağ olun. Ən sevimli mahnınız hansıdır? Siz onu eşidəndə dərhal zümzümə edirsinizmi?

**Leyla Əliyeva:** Hər dəfə müxtəlif cür olur. Son vaxtlar mən meditasiyada sufi musiqisini dinləyirəm. Ancaq bilmirəm niyə. Bu, sadəcə qeyri-reallıqdır. Ümumiyyətlə isə Faiq Ağayevi çox bəyənirəm. Əfsuslar olsun ki, o, bu gün çıxış etmir. Onun “Sən gəlməz oldun” mahnısı çox xoşuma gəlir.

**Aparıcı:** Leyla xanım, bəs Bakı sizdə hansı mahnı ilə assosiasiya yaradır?

**Leyla Əliyeva:** Bizim o qədər mahnılarımız var ki... Bakı məndə musiqi, sevgi və sevinclə assosiasiya yaradır. Əlbəttə ki, Müslüm Maqomayevin “Azərbaycan”ı nömrə birdir. Bəli. Ümidvaram ki, bundan sonra daha çox musiqi olacaq. Çünki bizim xalqımız musiqi qabiliyyəti olan xalqdır. Musiqi isə ürəkdən gəlir, yaradandan gəlir. Yaradıcılıq sözü “yaradan” sözündəndir. Mənə elə gəlir ki, bu, dünyanı daha yaxşı edir.

**Aparıcı:** Zəhmət olmasa deyin, bu gün hamı “Jara” festivalının ruhundan danışır. Sizcə festivalın ruhu nədədir?

**Leyla Əliyeva:** Əlbəttə ki, insanlardadır, sizin enerjinizdə, sizin sevginizdədir. Sizin düşüncələrinizdə və Azərbaycandadır. Sağ olun.



Qırmızı xalıdan Emin Ağalarov, Filipp Kirkorov, Vera Brejneva, Bosson, Rita Dakota, Dmitri Matatov, Nikolay Baskov, Kristina Orbakayte, Burito, Elina Çaqa, Zivert, Aleksandr Panayotov, Slava, Qriqori Leps, Ani Lopak, Lolita, Sergey Lazarev, Albina Canabaeva, Maks Barskix, Olqa Buzova, Alessandro Safina, Mişa Romanova, Çingiz Mustafayev, A'Studio, NK, MONATIK, Artik & Asti, Mozgi, Qlyuk'oza, Vremya & Steklo qrupları və başqaları keçiblər.

Emin Ağalarov “Jara” festivalının hazırlıq işlərinə həmişəki kimi bir il vaxt sərf olunduğunu bildirib. O qeyd edib ki, builki festival çərçivəsində də maraqlı ifalar, duetlər olacaq. Ümumilikdə festivalda dörd gün ərzində 250-dək ifaçı çıxış edəcək. Festivalın bu il də əla keçməsi üçün əlimizdən gələni etmişik.

“Jara-2019”un qırmızı xalı üzərindən keçən digər iştirakçıları da festivalın yüksək səviyyədə təşkilindən, Bakıda olmaqdan məmnunluqlarını ifadə ediblər. Onlar festivalı bütün il ərzində səbirsizliklə gözlədiklərini söyləyib, Azərbaycan xalqının qonaqpərvər olduğunu və bu tədbirdə məmnuniyyətlə oxuyacaqlarını bildiriblər.

Sonra “Jara-2019” festivalı başlayıb.

Festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın Xalq artisti Emin Ağalarov, Rusiyanın Əməkdar artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# “Jara-2019”da 200-dən çox müğənni çıxış edəcək





Builki “Jara” festivalının hazırlıq işlərinə də həmişəki kimi təxminən bir il vaxt sərf olundu. Builki festival çərçivəsində maraqlı ifalarla yanaşı, duetlər və yalnız ifaçıların iştirakı ilə “Jara-2018” haqqında çəkilmiş filmə baxış olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xalq artisti, “Jara” Beynəlxalq Musiqi Festivalının təşkilatçılarından biri Emin Ağalarov mətbuat konfransında səsləndirib. Qeyd edib ki, bu il festivalda dörd gün ərzində 200-dən çox ifaçı çıxış edəcək. İyulun 26-da ötən il çəkilmiş “Odnajdı na Jare” filminin ulduzlar üçün təqdimatı olacaq. Bu ekran əsərində festivalın iştirakçıları rol alıb. “Jara-2019” festivalının açılışı münasibətilə təşkil edilən mətbuat konfransında, həmçinin festivalın digər təşkilatçıları - Rusiyanın Əməkdar artisti Qriqori Leps, Olqa Buzova, Yana Çurikova, dünya şöhrətli ifaçılar Filipp Kirkorov, Ani Lopak, Sergey Kojevnikov və Zivert jurnalistlərin suallarını cavablandırıblar.

“Dörd gün ərzində əsl musiqi bayramı olacaq. Mən çox festivalda iştirak etmişəm, “Jara” Beynəlxalq Musiqi Festivalı çox yüksək səviyyədə təşkilatçılığı ilə digərlərindən seçilir”, - deyə Filipp Kirkorov vurğulayıb.

Mətbuat konfransında Filipp Kirkorovun gələn festival çərçivəsində yaradıcılıq gecəsinin keçirilməsi təklif olundu və müğənni buna razılığını bildirdi.

Qeyd olunub ki, gələn il “Jara” festivalının Dubayda ikinci dəfə, eləcə də Almaniya, Amerika və Belarusda keçirilməsi nəzərdə tutulur.

Gələn il festivalın 5 yaşı münasibətilə həmin gün beynəlxalq gün elan olunacaq. Burada rusiyalı müğənnilərlə yanaşı, Türkiyə, Amerika və digər ölkələri təmsil edən musiqiçilərin iştirakı ilə təqdimatlar keçiriləcək, konsert təşkil olunacaq.

təmiz şəhər

# Balaxanı Sənaye Parkında istehsal olunan məhsulların ABŞ-a ixracına başlanıb





Balaxanı Sənaye Parkının rezidenti Amerika Birləşmiş Ştatlarına məhsul ixracına başlayıb. İlkin olaraq ABŞ-a ildə 3 min mebel dəsti ixrac olunacaq.

Bununla əlaqədar olaraq təşkil olunmuş tədbirdə “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Etibar Abbasov Balaxanı Sənaye Parkında təkrar emal sahəsində görülən işlər, sənaye parklarında sahibkarlar üçün yaradılmış əlverişli şərait barədə məlumat verib. Bildirilib ki, Balaxanı Sənaye Parkı təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli “Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında” Sərəncamı ilə yaradılıb. Park 8,3 hektarlıq ərazidə yerləşir.

Təkrar istehsal sahəsinə maraq göstərən sahibkarlara münbit işgüzar mühitin yaradıldığı Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulka və materialların, kağız-karton məmulatların, süngər tullantılarının təkrar emalı və s. sahələri üzrə 8 rezident fəaliyyət göstərir. Daha 9 rezident 11 istehsalat sahəsi üzrə yaxın vaxtlarda fəaliyyətə başlayacaqdır.

Ümumilikdə isə Balaxanı Sənaye Parkına rezidentlər tərəfindən 41,5 mln. manat investisiya qoyuluşu və 680 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur.

Sahibkar Fərman İslamlı məlumat verib ki, ABŞ-a məhsul ixracına başlayan və süngər tullantılarının təkrar emalı və mebel istehsalı ilə məşğul olan “Foriella” MMC Balaxanı Sənaye Parkının rezidentidir və 2017-ci ilin sentyabr ayından fəaliyyət göstərir. Rezident tərəfindən Sənaye Parkında istehsal sahəsinin yaradılmasına 4 milyon manata yaxın investisiya yatırılıb. Rezidentə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kredit verilib. İstehsalın Almaniya, Türkiyə və İtaliya texnologiyaları əsasında təşkil edildiyi müəssisədə 170-ə yaxın insan daimi işlə təmin olunub.

Müəssisənin məhsulları yerli bazarda satılmaqla yanaşı, Gürcüstan, Ukrayna və Qazaxıstana ixrac olunur. Artıq ABŞ-a da məhsul ixracına başlanıb.

***“Azərbaycan”***

# Məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etməkdir

Azərbaycan Milli Olimpiya Komitəsinin, Təhsil, Gənclər və İdman nazirliklərinin, “Bakı 2019” Əməliyyat Komitəsinin nümayəndələri bu qurumların dəstəyi ilə “Olimpiya mədəniyyəti və təhsil proqramı” çərçivəsində Atletlər kəndində fəaliyyət göstərən pavilyonda məktəblilərlə görüşüblər.



AZƏRTAC xəbər verir ki, görüşdə Təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Olimpiya Komitəsinin baş katibinin müavini və Avropa Olimpiya Komitəsinin Avropa Gənclər Olimpiya Festivalı Komissiyasının üzvü Azər Əliyev iştirak ediblər.

Pavilyonu ziyarət edən rəsmilərə layihə və məktəblilərin fəaliyyəti haqqında məlumat verilib. Bildirilib ki, pavilyonda Atletlər kəndində məskunlaşan idmançılara, rəsmi nümayəndələrə və qonaqlara proqram vasitəsilə Bakıdan seçilmiş 49 təhsil müəssisəsinin nümayəndələri tərəfindən Avropa ölkələrinin mədəniyyəti, incəsənəti, tarixi və idmanı barədə məlumat təqdim edilir. Pavilyonun qarşıya qoyduğu digər məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etməkdir.

Təhsil nazirinin müavini Firudin Qurbanov təhsilin keyfiyyətinin artırılmasında məktəbdən kənar fəaliyyətin təsirindən danışıb. Qeyd edib ki, sağlam bədənə və ruha malik olan hər bir gənc gələcəkdə istənilən təhsilin istənilən sahəsində və pilləsində daha asan uğur qazanır.

Şagirdləri və məktəblərin kollektivini uğurlu fəaliyyət münasibətilə təbrik edən Azər Əliyev belə layihələrin məktəblilərdə idmana marağın artırılmasına və Olimpiya ruhunun inkişafına təsirindən danışıb. O, bu baxımdan “Olimpiya mədəniyyəti və təhsil” proqramının əhəmiyyətini xüsusi qeyd edib.

Olimpiya Mədəniyyəti və Təhsil Proqramı cari ilin fevral ayından fəaliyyətə başlayaraq Bakının 49 məktəbini əhatə edir. Proqram Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və “Bakı 2019” Əməliyyat Komitəsinin dəstəyi ilə həyata keçirilir.

“Olimpiya mədəniyyəti və təhsil” proqramı Bakıda keçirilən Avropa Gənclər Yay Olimpiya Festivalının irsi çərçivəsində həyata keçirilir. Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı, “Bakı 2019” Əməliyyat Komitəsinin, həmçinin Təhsil, Gənclər və İdman nazirliklərinin köməyi ilə reallaşdırılır. Proqramın məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyəti, idmanı və Olimpiya hərəkatını təşviq etməkdir.

# Psixologiya elminin problemləri və perspektivləri mövzusunda beynəlxalq konfrans keçirilir

İyulun 25-də Bakıda “Müasir Azərbaycan psixoloqları” İctimai Birliyi və Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) dəstəyi ilə “Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni yanaşmalar” mövzusunda ikigünlük beynəlxalq konfrans öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı, “Müasir Azərbaycan Psixoloqları” İctimai Birliyinin İdarə Heyətinin sədri Bəxtiyar Əliyev, ADPU-nun rektoru, professor Cəfər Cəfərov və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov mövzunun aktuallığını vurğulayıblar. Qeyd olunub ki, yerli və xarici mütəxəssislərin iştirakı ilə keçirilən konfrans ölkəmizdə psixologiya elmi sahəsində atılan mühüm addımdır. Belə tədbirlər fikir mübadiləsinin aparılması və beynəlxalq təcrübənin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Konfransda ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov, Respublika Narkoloji Mərkəzinin direktoru Araz Manuçehri Lalein, Psixologiya Elmi-Tədqiqat İnstitutunun direktoru Elnur Rüstəmov, professorlar Hasan Bacanlı, Mehmet Engin Deniz və digər çıxış edənlər psixologiya elminin nailiyyətlərindən bəhs ediblər.

Konfrans çərçivəsində ADPU ilə Psixologiya Elmi-Tədqiqat İnstitutu arasında elm və təhsil sahəsində əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu Cəfər Cəfərov və Bəxtiyar Əliyev imzalayıblar.

# Qoşulmama Hərəkatının Nazirlər Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha dəstəkləyib

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Qoşulmama Hərəkatına (QH) hazırda sədrlik edən Venesuela Bolivar Respublikasının Karakas şəhərində Hərəkatın Nazirlər Şurasının iclasında iştirak edib. İclas zamanı gündəlikdə yer alan digər məsələlərlə yanaşı, Qoşulmama Hərəkatının bu il oktyabrın 21-26-da Bakı şəhərində keçiriləcək 18-ci Zirvə Görüşünə hazırlıqla bağlı məsələlər müzakirə edilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirin sonunda Qoşulmama Hərəkatının məqsəd və prinsipləri ilə əlaqəli beynəlxalq sülh, təhlükəsizlik və sosial-iqtisadi inkişafa dair bir çox məsələlərin əks olunduğu yekun sənəd qəbul olunub.

Qoşulmama Hərəkatının Nazirlər Şurasının Yekun sənədində Azərbaycan Respublikasının mövqeyini dəstəkləyən bənd öz əksini tapıb. Burada, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrə baxmayaraq, Ermənistan və Azərbaycan arasında münaqişənin həll edilməmiş qaldığı, beynəlxalq və regional sülh və təhlükəsizliyə təhdid yaratmaqda davam etdiyi nazirlər tərəfindən təsdiqlənir. Həmçinin sözügedən bənddə Qoşulmama Hərəkatına üzv ölkələrin nazirləri BMT Nizamnaməsində əks olunan gücdən istifadə etməmək prinsipinin vacibliyini bir daha təsdiqləyərək tərəfləri münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar yolu ilə nizamlanması axtarışını davam etdirməyə çağırırlar.

2012-ci ildən etibarən Qoşulmama Hərəkatının qəbul etdiyi bütün sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına birmənalı dəstək və Ermənistan-Azərbaycan münaqişəsinin məhz bu prinsiplər əsasında həllinə çağırış ifadə olunur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan dünya sərgilərində nə sərgiləyir



*Əvvəli 1-ci səh.*

Sözügedən sərgidə İqtisadiyyat Nazirliyinin və Azərbaycanın Çindəki səfirliyinin dəstəyi ilə bu ölkədəki ticarət nümayəndəliyimizin təşkil etdiyi iki pavilyon fəaliyyət göstərib. Birinci pavilyonda Azərbaycanın iqtisadi inkişafına, əlverişli investisiya və biznes mühitinə, ölkəmizin təşəbbüsü və liderliyi ilə həyata keçirilən regional nəqliyyat-tranzit layihələrinə yer verilib.

İkinci pavilyonda isə "Made in Azerbaijan" brendi ilə buraxılan məhsullar nümayiş etdirilib. Bunlar şərab və digər spirtli içkilər, quru meyvələr, zəfəran, çay, müxtəlif mineral sular, meyvə şirələri, mürəbbələrdir. Tədbirdə məhsullarımızı Azərbaycan şirkətlərinin Çindəki nümayəndəlikləri, onların tərəfdaşları, idxalçılar, eləcə də Lucou şəhərindəki "Azərbaycan Ticarət Evi" nümayiş etdiriblər.

Azərbaycan Pekində keçirilən 6-cı Çin beynəlxalq ticarət xidməti sərgisinin (CIFTIS) də fəal iştirakçısından olub. 2012-ci ildən keçirilən CIFTIS Pekində təşkil olunan ən böyük sərgilərdən biri sayılır. Tədbirin əsas təşkilatçıları Çinin Kommersiya Nazirliyi və Pekin meriyasıdır. Dünya Ticarət Təşkilatı, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı da CIFTIS-i daim dəstəkləyirlər.

Ölkəmiz bu sərgidə ilk dəfə iştirak edib. Sərginin ekspozisiya zalındakı Azərbaycan stendində ölkəmizin investisiya, nəqliyyat-tranzit və turizm potensialı əks olunub. Eləcə də son illər gerçəkləşən infrastruktur layihələri, sənaye parklarında yerli və xarici investorlar üçün təqdim edilən imtiyazlar haqqında geniş məlumat verilib. Stenddə "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsullar, o cümlədən şərab və digər spirtli içkilər, meyvə şirələri, bitki yağları, konservlər, çay növləri nümayiş etdirilib.

İyun ayında isə Azərbaycan Tbilisidə keçirilən XXII beynəlxalq şərab və spirtli içkilər sərgisində təmsil olunub. 50-dək şirkətin iştirak etdiyi sərgidə ölkəmizi ilk dəfə "Az-Granata" təmsil edib. Bu MMC sərgidə 20-dək şərab və spirtli içki, eləcə də müxtəlif növ şirələr nümayiş etdirib.

Gürcüstanın Kənd Təsərrüfatı naziri Levan Davitaşvili Azərbaycan pavilyonunda olub, ölkəmizin şərabçılıq məhsullarının sərgidə nümayişini yüksək qiymətləndirib. Nazir hər iki ölkənin kənd təsərrüfatı, şərabçılıq sahələri, istehsal şirkətləri arasında əməkdaşlığın inkişafının vacibliyini qeyd edib.

Keçən ay Həştərxanda Xəzəryanı Ölkələrin Ticarət-Sənaye Sərgisi də keçirilib. Burada Xəzəryanı ölkələrin hamısı - Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan fəal iştirak ediblər. Tədbir bu ölkələrin möhkəmlənən əməkdaşlığının daha bir nümayişinə çevrilib. Həştərxan vilayətinin hökumət nümayəndələri əmin olduqlarını bildiriblər ki, Xəzəryanı Ölkələrin Ticarət-Sənaye Sərgisi iqtisadi əlaqələrin daha da inkişaf etməsinə kömək edəcək.

Qarşıda yeni sərgilər də var. Gələn ay Türkmənbaşı şəhərində keçiriləcək I Xəzər İqtisadi Forumu çərçivəsində beynəlxalq innovasiya texnologiyaları sərgisi təşkil ediləcək.

Xəzər İqtisadi Forumunun proqramı üç hissədən ibarət olacaq: Beynəlxalq konfrans, Xəzər İnnovasiyalar Texnologiyalar Sərgisi və müqavilə hüququ məsələləri - müqavilələrin, sazişlərin və başqa sənədlərin imzalanması. Forum çərçivəsində müxtəlif iqtisadi və ekoloji mövzularda "dəyirmi masa"lar da təşkil olunacaq.

İstər Azərbaycanda keçirilən, istərsə də Azərbaycanın digər ölkələrdə iştirakçısı olduğu sərgilər iqtisadi əlaqələrin genişlənməsinə təkan verməklə yanaşı insanlar arasında ünsiyyət, dostluq, əməkdaşlıq körpüləri yaradır. Bu münasibətlər də öz növbəsində yeni uğurların təməlini qoyur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanda Milli Məkan Məlumatları İnformasiya Sistemi qurulur



"Azərbaycanda Milli Məkan Məlumatları İnfrastrukturunun əsasları" mövzusunda konfrans keçirilib. Tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədrləri, İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri, Milli Məkan Məlumatları İnfrastrukturunun yaradılması işlərini həyata keçirən "Ofek Aerial Photography" şirkətinin rəhbərliyi və nümayəndələri, jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov bildirib ki, Azərbaycan Prezidenti Ilham Əliyevin rəhbərliyi altında dövlətin idarəetmə mexanizmi innovativ üsullarla həyata keçirilir, o cümlədən elektron hökumət quruculuğu, geoməkan standartlarının tətbiqi sahələrində işlər təkmilləşdirilir: "Elektron hökumətin ayrılmaz tərkib hissəsini ölkədə qurulmasına start verilmiş Milli Məkan Məlumatları İnfrastrukturu təşkil edir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli fərmanı ilə "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları" təsdiq edilmişdir. Bu qaydalar milli məkan məlumatlarının formalaşdırılması, aktuallığının təmin edilməsi və inteqrasiyası, o cümlədən milli məkan məlumatları üzrə xidmətlərin göstərilməsi prosedurlarını müəyyən edir. Fərmana uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsinə Milli Məkan Məlumatları İnformasiya Sisteminin yaradılması və həmin sistemin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası işi həvalə edilməklə komitə sistemin operatoru kimi müəyyən olunub.

Sədr daha sonra bildirib ki, Milli Məkan Məlumatları İnformasiya Sisteminin formalaşdırılması və Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı məsləhətçi xidmətlərinin cəlb edilməsi üzrə açıq tender keçirilib və İsrailin beynəlxalq nüfuzlu "Ofek Aerial Photography" şirkəti tenderin qalibi elan edilib.

Daha sonra Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ölkəmizdə elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı ölkə rəhbərliyinin tapşırıqlarına uyğun olaraq mühüm layihələrin həyata keçirildiyindən danışıb. O, Milli Məkan Məlumatları İnfrastrukturunun Rəqəmsal Hökumətin vacib komponentlərindən biri olduğunu və bu sistemin tez bir zamanda qurulmasının vacibliyini vurğulayaraq bildirib ki, məlum fərmana əsasən agentlik milli məkan məlumatlarının ilkin mənbəyini və onları formalaşdıran aidiyyəti dövlət qurumlarının siyahısını müəyyən edir.

Konfransın əhəmiyyətinə toxunan İsrail dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav isə bildirib ki, Milli Məkan Məlumatları İnfrastrukturunun yaradılması ilə dövlət qurumlarının idarəetməsində daha operativ qərarlar qəbul ediləcək.

Sonra Əmlak Məsələləri Dövlət Komitəsi ilə İsrail Dövlətinin "Ofek Aerial Photography" qurumu arasında Milli Məkan Məlumatları İnformasiya Sisteminin formalaşdırılması və Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı məsləhətçi xidmətlərinin göstərilməsinə dair müqavilə imzalanıb.

***"Azərbaycan"***

## Mobil rabitə operatorları 421 milyon manatdan çox gəlir əldə edib

**Bu ilin yanvar-iyun ayları ərzində ölkənin informasiya və rabitə müəssisələri ümumilikdə 999,8 milyon manatlıq xidmət göstərib. Göstərilən xidmətdən 72,1 faiz əhali istifadə edib.**

2018-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 15,8 faiz artıb. Bu sahədə əldə edilmiş gəlirin isə 82,5 faizi qeyri-dövlət sektorunun payına düşüb.

Xidmətlərdən əldə edilən gəlirin 42,2 faizi və ya 421,5 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

## "INNOLAND" və "AzerGold" QSC birgə Akselerasiya Proqramına başlayıblar

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi "AzerGold" QSC ilə birgə Akselerasiya Proqramına başlayıb.**

Agentlikdən verilən xəbərə görə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, "AzerGold" QSC-nin idarə heyətinin üzvü, sədrin müavini Xəyyam Fərzəliyevin iştirakı ilə tərəflər arasında görüş keçirilib. Tərəflər Akselerasiya Proqramı haqqında müqavilə imzalayıblar. Əməkdaşlığın əsas məqsədi sahələrarası innovasiyanı stimullaşdırmaq üçün sənayenin inqilabi startaplarını bir araya gətirmək, sənaye ilə bağlı yenilikləri təşviq etmək və prosesləri optimallaşdırmaqdır.

Tərəflər arasında əldə olunan razılığa əsasən, Akselerasiya Proqramında dağ-mədən sənayesində və "AzerGold" QSC-də prosesləri optimallaşdıran, mövcud potensialı inkişaf etdirən, peşəkar bilikləri artıran, aparıcı texnologiyalardan, avadanlıqlardan və həll yollarından istifadə edən startaplar iştirak edə bilər.

Dağ-mədən sənayesi üçün innovativ həllər təqdim etməklə yanaşı, startaplar "AzerGold" QSC-nin təşkilati ehtiyacları üçün, o cümlədən geologiya, insan resurslarının idarəolunması, rəqəmsallaşdırma, hüquq, maliyyə və digər sahələr üzrə həllər təklif edəcək. Akselerasiya Proqramını uğurla bitirən startaplar "AzerGold" QSC ilə birbaşa əməkdaşlıq edəcəklər.

## Daha iki "KOB könüllüsü" işlə təmin edilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, iki "KOB könüllüsü" - Rəşad Rüstəmov və Navad Qələndərova könüllü fəaliyyətini uğurla başa vuraraq "166 Global Logistics LLC" şirkətində ofis meneceri kimi fəaliyyətə başlayıblar.**

Gənclərə dəstək olmaq, peşəkar əmək fəaliyyətinə başlayanadək onların müvafiq peşə vərdişlərinə yiyələnməsi, dünyagörüşünün, bilik və praktik bacarıqlarının artırılması üçün agentlikdə "KOB Könüllüləri" Fəaliyyət Proqramı həyata keçirilir. Hazırda 30 gənc agentlikdə və "KOB Dostu" şəbəkəsində könüllü fəaliyyət göstərir.



# "İşsizin DOSTu" köməyə gəlir

## Bu proqram çərçivəsində artıq 38 min nəfər ödənişli işlərə cəlb olunub

Ölkəmizdə dinamik və uzunmüddətli iqtisadi inkişafın təmin edilməsi, sosial tərəqqiyə nail olunması, əhalinin rifah halının yaxşılaşdırılması, eyni zamanda dövlət sosial xidmətlərinin keyfiyyətinin yüksəldilməsi Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir.

Dövlət başçısının 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyinin yaradılması da Azərbaycanın sosial sahədə mühüm innovativ yeniliklərindən, beynəlxalq səviyyədə təqdir edilən, bir çox ölkələrin öyrənməyə maraq göstərdikləri uğurlu təcrübələrindən biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi də əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin "bir pəncərə"dən təqdim edilməklə keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə bürokratik maneələrin qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması məqsədinə xidmət edir.

Prezidentin 30 oktyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın 4.4.5-ci bəndində işsiz və işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunun çevik və səmərəli təşkili məqsədilə haqqı ödənilən ictimai işlərin təşkili mexanizminin yeniləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bununla da haqqı ödənilən ictimai işlərin təşkili sistemli və şəffaf şəkildə qurulub genişləndirilməsi üçün "İşsizin DOSTu" proqramı hazırlanaraq icra edilir.

"İşsizin DOSTu" proqramının icrası çərçivəsində vətəndaşların ictimai işlərə cəlb olunması ilə əlaqədar səmərəli idarəetmənin təşkili üçün "DOST İŞ MƏRKƏZİ" MMC yaradılıb və sözügedən proqramın icrası ilin əvvəlindən həmin mərkəzə tapşırılıb. "DOST İŞ MƏRKƏZİ" tərəfindən icra olunan "İşsizin DOSTu" proqramı çərçivəsində artıq 38 min nəfər ödənişli ictimai işlərə cəlb edilib.

"DOST İŞ MƏRKƏZİ" MMC-nin nizamnaməsində haqqı ödənilən ictimai işlərin təşkili ilə əlaqədar işsiz şəxslərin işə qəbulu, ictimai işlərə göndərilməsi və əməkhaqlarının maliyyələşdirilməsi, ictimai işlərin təşkili yolu ilə sosial xidmətlərin göstərilməsi, işaxtaran və işsiz vətəndaşların işə düzəlməsinə kömək göstərilməsi, işədüzəlmədə vasitəçilik fəaliyyətinin həyata keçirilməsi mərkəzin əsas fəaliyyət istiqamətləridir.

"İşsizin DOSTu" layihəsinin icrasında "DOST İŞ MƏRKƏZİ" MMC, müvafiq rayon (şəhər) icra hakimiyyətləri və ictimai işləri birbaşa icra edən, işçilərə münasibətdə əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı qanunvericilikdə nəzərdə tutulan tədbirləri təmin edən icraçı qurum (müvafiq təsərrüfat müəssisəsi) birgə fəaliyyət göstərir. İctimai işlərin əhalinin məşğulluğu məqsədi ilə təşkil olunduğu və işçi qüvvəsinin cəlb edilməsinin qeyri-kommersiya məqsədi daşıdığı sazişdə xüsusi vurğulanıb. Sazişə əsasən, rayon icra hakimiyyəti müvafiq rayon (ərazi) üzrə ictimai işlər təşkil edir, bu işlərə nəzarəti və əlaqələndirməni həyata keçirir. Rayon icra hakimiyyəti il ərzində müvafiq dövr üzrə ictimai işlərə cəlb olunacaq işçi qüvvəsinə dair məlumatları mərkəzə təqdim edir. Mərkəz əmək müqaviləsi bağladığı işçi qüvvəsini icraçı qurumun tabeçiliyinə təhkim edir. İcraçı işçi qüvvəsini ictimai işlərə cəlb edərkən iş yerində əmək şəraiti şərtlərini əmək qanunvericiliyi normalarına uyğunlaşdırır, işçi qüvvəsinin peşə vərdişlərini, təcrübəsini, yaşını, eləcə də iş rejimini və digər zəruri əmək şəraitini nəzərə alır.

"İşsizin DOSTu" proqramı çərçivəsində sosial ictimai işlərə cəlb olunmaq istəyən işaxtaran və işsiz vətəndaşların qeydiyyatda olduqları rayon (şəhər) üzrə Məşğulluq mərkəzləri tərəfindən məşğulluq alt sistemi vasitəsilə "DOST İŞ MƏRKƏZİ" MMC-yə vakansiya göndərişi verilir. "Məşğulluq haqqında" qanunun 21-ci maddəsində göstərilir ki, haqqı ödənilən ictimai işlərdə iştirak etmək istəyən şəxslərlə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müddətli əmək müqaviləsi bağlanır. Haqqı ödənilən ictimai işlərə abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması (o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq), sosial xidmətlərin göstərilməsi, cari təmir işləri və s. daxildir.

Vətəndaşların əmək müqavilələri bildirişi "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi xidmətindən istifadə üzrə metodiki göstərişlər"də mövcud qaydalara uyğun elektron qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Elektron hökumət portalında əmək müqaviləsi bildirişi imzalandıqdan sonra MAS (Məşğulluq Alt Sistemi) vasitəsilə verilmiş vakansiya göndərişi mərkəz tərəfindən qəbul edilir. Habelə əmək müqavilələri əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq iki nüsxədə tərtib edilərək bir nüsxəsi işçiyə verilir. Elektron qaydada əmək müqaviləsi bildirişinin rəsmiləşdirilməsi işçilərin sosial sığorta sistemində qeydiyyata alınmasına, gələcəkdə onların pensiya hüquqlarının yaranmasına əsas yaradır, eyni zamanda, fərdi hesablarında pensiya kapitallarının toplaşmasına imkan verir.

"İşsizin DOSTu" proqramına cəlb olunan işçinin məcburi dövlət sosial sığortası üçün qanunvericilikdə müəyyən olunmuş qaydada və məbləğdə hər ay sığorta haqqı ödənilir. Sosial sığorta şəhadətnaməsi olmayan işçilərin sosial sığorta kartı mərkəz tərəfindən əmək müqaviləsi bağlandıqdan sonra sifariş edilir. Elektron qaydada qeydiyyatdan keçirilmə ilə yanaşı, işçinin təqdim etdiyi əmək kitabçasında da "İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydaları" rəhbər tutularaq müvafiq qeydlər aparılır. Kadr məsələlərinə dair işlər və elektron qaydada aparılan bütün əməliyyatlar mərkəzin İnsan resursları departamentinin mütəxəssisləri tərəfindən həyata keçirilir.

"Məşğulluq haqqında" qanunun 21-ci maddəsinin 3-cü bəndində göstərilir ki, haqqı ödənilən ictimai işlərə cəlb olunan işsiz şəxslər faktiki yerinə yetirilən işə görə, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən minimum əməkhaqqı məbləğindən az olmamaq şərti ilə əməkhaqqı alırlar. İşçilərin əməkhaqqı ödənişləri mərkəzin Maliyyə departamentinin mütəxəssisləri tərəfindən həyata keçirilir. Həmçinin işçiyə lazım olan iş yeri və əməkhaqqı ilə bağlı arayış və digər sənədlər mərkəz tərəfdən hazırlanır.

"Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 22 avqust 2002-ci il tarixli qərarının 3, 4, 5 və 6-cı bəndlərində göstərilən ərazilərdə və şərtlərdə çalışan işçilərə həmin bəndlərdə qeyd olunan məbləğdə əlavə ödənişlər də verilir.

"DOST İŞ MƏRKƏZİ" MMC-də bütün sənədləşdirmə və kargüzarlıq işləri "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair" təlimatın tələblərinə və "Elektron sənədlərin mübadiləsi Qaydası"na uyğun Elektron Sistem Dövriyyəsi Alt Sistemi (ESDAS) vasitəsilə həyata keçirilir.

***Arzu ŞÜKÜROVA,***
***"DOST İŞ MƏRKƏZİ"***
***MMC-nin hüquqşünası***

XV Avropa Gənclər Yay Olimpiya Festivalı





# 9 qızıl, 6 gümüş, 5 bürünc

## 20-ci medal bayraqdardan gəldi

### Azərbaycan cüdoçuları ümidləri doğruldurlar



*Əvvəli 1-ci səh.*

Festivalda 40 ölkədən 297 cüdoçu mübarizəyə qoşulub. Azərbaycan bu nüfuzlu turnirə 12 cüdoçu (8 oğlan, 4 qız) ilə qatılıb.

Ümumiyyətlə, Azərbaycanda təşkil olunan idman yarışlarında ölkəmizin hesabına ən çox medal yazdıranlardan biri də cüdoçular olublar. Xatırladaq ki, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarında cüdoçularımız ümumilikdə 13 medal - 6 qızıl, 7 gümüş medal qazanıblar.

Azərbaycanın həm kişilər, həm də qadınlardan ibarət millilləri komanda yarışlarında da uğurla çıxış ediblər. Kişi cüdoçularımız bütün rəqiblərinə qalib gələrək İslam Oyunlarının qızıl medallarını qazanıblar. Qadın cüdoçularımız isə yalnız finalda Türkiyə millisinə uduzaraq gümüş medala sahib olublar.

Dünən isə XV Avropa Gənclər Olimpiya Festivalının Heydər Əliyev adına İdman Arenasında keçirilən cüdo yarışlarında ikinci günə yekun vurulub. Yarışların ikinci günündə qızlar 52 kq, 57 kq və 63 kq, oğlanlar 66 kq və 73 kq çəki dərəcələrində çıxış ediblər. Azərbaycanın üç idmançısı mübarizə aparıb.

Oğlanların mübarizəsində 73 kq çəkidə yarışan Vüqar Talıbov 1/8 finalda belaruslu Denis Yavseyenkanı, 1/4 finalda Adam Kopeçkunu (Çexiya) məğlub edib.

Festivalda millinin bayraqdarı olan cüdoçu finala gedən yolda türkiyəli Musa Şimşəklə qarşılaşıb. Bu dəfə 27 saniyəyə ipponla qalib gələn idmançı həlledici görüşdə italiyalı Luici Sentraççio ilə güləşib. Rəqibinə ipponla uduzan Vüqar “Bakı-2019”u gümüş medalla başa vurub.



66 kq çəki dərəcəsində qüvvəsini sınayan Mətin Rzazadə debütdə Elquya Şinçaraşvilini (Gürcüstan) ippona salsa da, 1/4 finalda Sayxan Şabixanova (Rusiya) uduzub. Cüdoçumuz təsəlliverici görüşdə kosovolu Festim Beqiri ilə gücünü yoxlayıb. Rəqibindən üstün olan Mətin bürünc medal uğrunda macarıstanlı Daniel Zeqedi ilə görüşdən məğlub ayrılaraq turniri 5-ci yerdə başa vurub.

Qızların yarışında Aytac Qardaşxanlı (57 kq) ilk görüşündə Eirka Vauhkonenlə (Finlandiya) üz-üzə gəlib. Görüş təmsilçimizin qələbəsi ilə yekunlaşıb. O, startda olduğu kimi, 1/8 finalda Böyük Britaniya təmsilçisi İzabel Kitçenə, 1/4 finalda isə Florentina İvaneskuna (Rumıniya) ipponla qalib gəlib.

Təmsilçimiz yarımfinalda rusiyalı Kseniya Qalitskaya ilə güləşdə uduzaraq bürünc medal uğrunda almaniyalı Samira Bok ilə qarşılaşıb. Görüşdə uduzan idmançımız festivalı medalsız başa vurub.

Beləliklə, cüdoçularımız iki yarış günündə 4 medal qazanmaqla ümidləri doğruldurlar.

***Elçin CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***



## Atletika yarışlarında qaliblər müəyyənləşib

Dünən atletika yarışlarında 400 metr məsafələrə qaçış, 400 metr məsafəyə maneələrlə qaçış və çəkicatma yarışlarının final mərhələləri keçirilib.

Qızların 400 metr məsafəyə maneələrlə qaçış yarışında qalib ispaniyalı atlet Salma Paralluelo olub. Gənc atlet məsafəni 57.95 saniyəyə qət edib. İkinci yeri isə 59.05 saniyə nəticə ilə norveçli idmançı Andrea Ruth tutub. Fransalı atlet Abeqa Madeline isə 59.28 saniyə nəticə ilə üçüncü yerdə qərarlaşıb.

Kişilər arasında keçirilən çəkicatma yarışında isə Bolqarıstan idmançısı Valentin Andrev qızıl medal qazanıb. Gümüş medala almaniyalı atlet Hummel Merlin, bürünc medala isə fransalı idmançı Jan Baptiste sahib çıxıb.

Kişilərin 400 metr məsafəyə qaçışında isveçli atlet Emil Yohanson birinci, polşalı atlet G.Patrik ikinci, macarıstanlı idmançı Attila Molnar üçüncü yeri tutub.

## Rusiya gimnastları daha 3 medal qazandılar



XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında çoxnövçülük turnirinə yekun vurulub.

Qadınların yarışında Rusiya idmançısı Viktoriya Listunova 56 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Böyük Britaniya təmsilçisi Ondine Açamponq 52,950 xalla yarışı ikinci, digər rusiyalı Yana Vorona isə 52,550 xalla üçüncü pillədə başa vurublar.

Kişilərin çoxnövçülük turnirində də qaliblər müəyyənləşib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Ukrayna təmsilçisi İlya Kovtun 82 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rusiya təmsilçiləri İvan Kulyak (81,100 xal) gümüş, Muhammadjon Yakubov (80,550 xal) isə bürünc medal qazanıblar.



## Tennis - finalçılar bəllidir

XV Avropa Gənclər Yay Olimpiya Festivalında tennis yarışında qız və oğlan cütlüklərinin yarışında finalçılar məlum olub.

Həlledici oyunda Rusiya və Belarus tennisçiləri üz-üzə gələcəklər. Bakı Tennis Akademiyasında keçirilən yarımfinal qarşılaşmasında Mariya Şoloxova/Yekaterina Maklakova Rusiya dueti belçikalı cütlüyü məğlubiyyətə uğradıb (6:4,6:2). Digər yarımfinalda isə Yevalina Laskeviç/Mariya Stsetseviç Belarus dueti çexiyanın gənc raketka ustalarından üstün olub (6:2, 6:0).

Oğlan tennisçilər arasında isə qalibin adına Polşa və Çexiyanın gənc raketka ustalarının qarşılaşmasında aydınlıq gələcək. Bakı Tennis Akademiyasında keçirilən yarımfinal görüşündə polşalı Filip Pieçzonka/Olaf Pieçkovski dueti İspaniya tennisçilərini üç setin yekununda (4:6, 6:4, 10:8) məğlubiyyətə uğradıb.

Digər yarımfinal qarşılaşmada isə çexiyalı Matthev Villiam Donald/Hinek Barton cütlüyü Belçika duetindən üstün olub. Burada da qalib üç setə müəyyənləşib.

Beləliklə, oğlan cütlərin final görüşündə Filip Pieçzonka/Olaf Pieçkovski (Polşa) və Matthev Villiam Donald/Hinek Barton (Çexiya) cütləri üz-üzə gələcək.

## Voleybol: “A” qrupunda sonuncu turun görüşləri keçirilib



Voleybol turnirində qruplar üzrə sonuncu - 3-cü turun görüşləri yekunlaşıb.

“A” qrupunda Rusiya və Azərbaycanın voleybolçu oğlanlardan ibarət seçmə komandalarının mübarizəsi birincilərin üstünlüyü şəraitində keçib və matç onların xeyrinə başa çatıb - 3:0 (25:15, 25:11, 25:23). Beləliklə, ardıcıl 3-cü qələbəsini qazanan ruslar qrup lideri, Belarus komandası isə 2-ci yerin sahibi kimi yarımfinala yüksəlib. 3 xal toplamış Almaniya 3-cü olub, hər üç oyunu uduzan Azərbaycan yığması isə sonuncu pillədə qərarlaşıb.

“A” qrupunda Ukraynanın voleybolçu qızları Bolqarıstan komandasını məğlub ediblər - 3:0 (25:16, 25:23, 25:15). Amma qrupdan yarımfinala Rusiya (9 xal) və Rumıniya (6 xal) seçmələri vəsiqə əldə ediblər.



## Velosipedçi Zoe Bakstedt qrup yarışının qalibidir

Velosiped idmanında qızlar arasında qrup yarışı keçirilib.

Qələbə uğrunda 30-dan çox ölkədən 75 gənc velosipedçi 50 km məsafədə mübarizə aparıb. Qrup yarışını Zoe Bakstedt (Böyük Britaniya) 1:21.00 nəticə ilə qalib bitirib. İtaliyalı velosipedçi Françeska Barale gümüş (1:22.04), rusiyalı Alyona İvançenko isə bürünc (1:22.09) medal qazanıb.

## Basketbol və həndbolda qrup mərhələsi başa çatıb

Basketbol və həndbol turnirlərində qrup mərhələsinə yekun vurulub.

Basketbolçu oğlanların yarışında Serbiya komandası “A” qrupunun lideri, Fransa yığması isə 2-ci yerin sahibi kimi növbəti mərhələyə vəsiqəni təmin ediblər. “B” qrupunda bu hüquqa İspaniya və Türkiyə yığmaları yiyələniblər.

Qızların mübarizəsində “A” qrupunda Rusiya və Belçika, “B” qrupunda isə Çexiya və Macarıstan basketbolçuları fərqləniblər.

Pley-off mərhələsinin görüşləri bu gün olacaq.

Həndbolçu oğlanların mübarizəsində Danimarka və Almaniya kollektivləri “A” qrupundan, Fransa və Xorvatiya seçmələri isə “B” qrupundan növbəti mərhələyə vəsiqə qazanıblar.

Qızların yarışında “A” qrupunda Hollandiya və Fransa, “B” qrupunda isə Macarıstan və İsveçrə həndbolçuları yarımfinalda iştirak hüququnu rəsmiləşdiriblər.

Həndbol turnirində də pley-off mərhələsinin görüşləri bu gün keçiriləcək.







## Metyu Uilyam DONALD: “Bu festival mənə Bakını sevdirdi”

“XV Avropa Gənclər Yay Olimpiya Festivalı mənə Bakını sevdirdi. Belə bir şəhərdə yarışmağım məni sevindirir. Festivalın Bakıda keçiriləcəyini biləndə təsəvvür etmirdim ki, həm yarışacağam, həm də gözəl bir şəhərlə tanış olacağam”.

Bu fikri AZƏRTAC-a müsahibəsində Yay Olimpiya Festivalında yarışan çexiyalı tennisçi Metyu Uilyam Donald söyləyib.

“Olimpiada çox gözəl təşkil olunub. İdmançılar üçün bütün lazımi şərait yaradılıb. Hətta oyunlararası asudə vaxtımızı maraqlı keçirməyimiz üçün imkanlar var. Artıq yarışın 1/4 mərhələsində oynayacağam. Komanda yarışlarında da uğurlu çıxışlar edirik. Çətin oyunlar keçirərək finala doğru addımlamaq qələbəyə inamımı daha da artırır”, - deyə çexiyalı tennisçi vurğulayıb.

Yay mövsümü

# Belə içiləndə dərd verir su da...

**Su insan orqanizmini qoruyan ən önəmli faktorlardan biridir. Sağlamlığımızı qorumaq üçün gün ərzində xeyli su içirik, xüsusilə yay aylarında. Amma suyu içdiyimiz plastik qabların təhlükəsindən xəbərsizik.**





Plastik qablarda satılan xeyli növdə adi, qazlı, şirin sulara bütün satış obyektlərində rast gəlirik. Amma müşahidələrə əsasən demək mümkündür ki, onların bəzilərində həmin suların saxlanma şəraiti normalara uyğun deyil. Bəllidir ki, yay aylarında suya tələbatın yüksəlməsi səbəbi ilə marketlərdə, mağazalarda daha çox su sifariş olunur. Nəticədə suların saxlanması üçün kifayət qədər yer olmadığından, həmin sular saatlarla açıq havada, birbaşa Günəşin düşdüyü yerlərdə qalır, daha sonra yer boşaldıqca soyuduculara yığılır. Sular istehsal yerindən topdansatış məntəqələrinə çatdırılana qədər də müəyyən zaman ərzində Günəşlə təmasa və istiliyə məruz qalırlar. Odur ki, bu şəraitdə saxlanılan, xüsusilə də Günəş şüalarının nüfuz etdiyi plastik şüşələrdəki sular insan orqanizmi üçün birbaşa təhlükə mənbəyinə çevrilir.

Harvard Universitetinin "School of Public Health" araşdırmaçılarının tələbələr üzərində apardıqları yoxlamalardan sonra məlum olub ki, bir həftəboyu plastik şüşələrdən su içən tələbələrin orqanizmlərində Bisfenol A maddəsi yüzdə 69 faiz artıb. Plastik kütləyə bərkidici kimi qatılan təhlükəli maddə suda zəif həll olunsa da, çənlərdə uzun müddət qaldıqda, həmçinin istiliyə məruz qaldıqda suya diffuziya edə bilir və insan orqanizmi üçün təhlükə yaradır. Bisfenol A bir sıra xəstəliklərlə yanaşı prostat və süd vəzi xərçənginin inkişafına da yol açır.

## İstilik nəticəsində kanserogen maddəyə çevrilir

Terapevt-qastroenteroloq Mətanət Cəfərova bildirir ki, xüsusilə yay aylarında su alarkən diqqətli olmaq vacibdir: "Bu aylarda plastik şüşələrdə satılan sulardan uzaq durmaq lazımdır, çünki istifadəsi qətiyyən məsləhət deyil. Plastik qablarda olan suların xüsusi saxlanma temperaturu var. Təəssüf ki, çox vaxt bu şərtlərə əməl olunmur və birbaşa Günəş şüaları altında qalan plastik şüşələrdəki sular satışa çıxarılır. Belə suları isə qətiyyən almaq olmaz və mütləq şüşə qablardakı sulardan istifadə etmək lazımdır. Plastik stəkanlardan da yalnız soyuq su içmək üçün istifadə edilməlidir. Həmin stəkanların isti çay, yaxud kofe üçün istifadə edilməsi yolverilməzdir. Yüksək istilik nəticəsində toksik maddələr çaya, kofeyə qarışır və birbaşa orqanizmə daxil olur ki, bu da acı nəticələr verir".



Həkim plastik su qablarından təkrar istifadə hallarının da yolverilməz olduğunu bildirərək söyləyir ki, birdəfəlik istifadə üçün nəzərdə tutulsa da, sonradan su qablarında süd, qatıq, turşu tərkibli məhsulların saxlanması halları müşahidə edilir. Bu zaman plastik qabların tərkibindəki kimyəvi maddələr aktivləşir və qidaya qarışır. Həmin qida yeyildikdə insan orqanizmində zərərli maddələr toplanır. Plastik qablardakı təhlükəli maddə polivinil xlorid təkrar istifadə və istilik nəticəsində kanserogen maddəyə - vinilxloridə çevrilir. Bu qablardan davamlı istifadə bir müddət sonra ciddi fəsadlara gətirib çıxarır və nəticədə həmin qidanı qəbul edən insanlar xərçəng xəstəliyinə tutulurlar.

## Plastik qablardakı sular Günəş şüaları altında saxlandıqda...

Qida Təhlükəsizliyi Agentliyindən verilən məlumatda bildirilir ki, qablaşdırma qida və qeyri-qida məhsullarının təhlükəsiz şəraitdə saxlanılması, ətraf mühitin zərərli təsirlərindən qorunması və rahat daşınması üçün əhəmiyyətlidir. Lakin son illərdə qida məhsullarının qablaşdırılması üçün istifadə edilən materialların təhlükəsizliyi və onların qidaya mümkün təsiri kifayət qədər aktual mövzulardan biri hesab edilir. Çünki, qablaşdırma materialları qida məhsulları ilə bilavasitə təmasda olduğundan, onlardan qidaya müxtəlif kimyəvi maddələrin miqrasiya etməsi mümkündür.

Qablaşdırma məhsulları plastik, metal, kağız, şüşə kimi materiallardan hazırlanır. Qida məhsullarının qablaşdırılmasında istifadə edilən materialların qida üçün təhlükəsiz və təsirsiz olması vacibdir. Lakin araşdırmalar göstərir ki, bu cür materialların heç də hamısı təhlükəsiz qablaşdırma materialları deyil. Buna plastik qablaşdırma materiallarını misal göstərmək olar. Belə ki, qida məhsullarının qablaşdırılması üçün istifadə olunan plastik qablardan toksiki xassəli kimyəvi maddələr qidaya qatıla bilər. Bunlar bilavasitə plastiklərin istehsalı prosesində yaranan və xammaldan gələn maddələrdir. Çünki plastik materialların əksəriyyəti yüksək temperatur şəraitində və neftin təkrar emal məhsullarından alınır. Bu da plastiklərdə sağlamlıq üçün təhlükəli olan zərərli kimyəvi maddələrin yaranmasına gətirib çıxarır. Belə maddələrə ağır metallar, ftalatlar, plastik monomerləri, bisfenol A və s. misal göstərmək olar. Plastik qablarda qablaşdırılan qida və içkilərin uzun müddət Günəş şüaları altında saxlanılması belə maddələrin qidaya miqrasiyasına əlverişli şərait yaradır. Nəticədə belə məhsullardan uzun müddət istifadə insan sağlamlığına mənfi təsir göstərir. Odur ki, plastik qablarda qablaşdırılan qida və içkilərin uzun müddət Günəş şüaları altında saxlanılması yolverilməzdir.

## Kimyəvi-toksikoloji maddələr suyun tərkibinə nüfuz edir

Agentlikdən bildirilir ki, içməli suların qablaşdırıldığı materiallar düzgün seçilmədikdə, saxlanma şəraitinə əməl edilmədikdə və ya istifadə olunan material təkrar emaldan çıxıbsa, həmin materiallardan kimyəvi-toksikoloji maddələr suyun tərkibinə nüfuz edir. Qablaşdırılma materiallarından suya keçən toksikoloji maddələrin uzun müddət qəbulu daxili orqanlarda və mərkəzi sinir sistemində ciddi fəsadlara səbəb olur.

Dezinfeksiya, filtrasiya və qablaşdırma proseslərinə düzgün riayət edilməməsi suyun tərkibində olan mineralların böyük qisminin itirilməsinə, eyni zamanda rəng, dad, qoxu və turşuluq kimi keyfiyyət göstəricilərinin mənfi yöndə dəyişməsinə səbəb olur.

Sular istehsalat şəraitində uyğun şərtlər altında qablara doldurulmalı, daha sonra saxlanma şərtlərinə və ən sonda suların satışı zamanı müvafiq qaydalara əməl olunmaqla məhsulların satışı həyata keçirilməlidir. Bu zəncirin hər hansı bir hissəsində baş verən qırılma sonda təhlükəli məhsulun istehlakçıya qədər çatmasına gətirib çıxara bilər. İstənilən qida məhsulu kimi, qablaşdırılmış suların da saxlanılma şərtlərinə əməl olunmalı və daşınması həyata keçirilməlidir. Qablaşdırılmış sular sərin, təmiz, quru və qoxusuz şəraitdə saxlanılmalıdır. İstehlakçılar məhsulu alarkən plastik və ya şüşə butulka üzərində əks olunmuş istehsal və son istifadə tarixlərinə xüsusi diqqət etməlidirlər. Həmçinin qablaşma üzərində olan etiketdə qeyd edilən adla qapaq üzərindəki ad eyni olmalı, qapağın möhkəm bağlanıb-bağlanmamasına xüsusi diqqət yetirilməlidir. Plastik qablaşdırılmış suları mümkün qədər şüşə qablaşma ilə əvəz etməyin faydası var. Bununla bağlı agentlik tərəfindən məhsulların qida təhlükəsizliyi qaydalarına uyğun satışının təşkili məqsədi ilə satış müəssisələrində mütəmadi olaraq monitorinqlər həyata keçirilir və qanunvericiliyin tələbləri çərçivəsində tədbirlər görülür.

## Dünya bu qablardan imtina edir

Hazırda bütün dünya plastik məhsulların istifadəsindən aktiv şəkildə imtina edir.

Artıq Avropa İttifaqı parlamenti 2021-ci ildən etibarən birdəfəlik istifadə olunan sərinləşdirici içkilər üçün plastik şüşələrin, qabların, paketlərin tam qadağan edilməsini təsdiq edib.

Ölkəmizdə də plastik qablar, torbalardan imtina ilə bağlı müəyyən addımlar atılır, maarifləndirmə işləri aparılır, amma hələlik bu kütləvi xarakter alaraq problemi kökündən həll edəcək miqyasda deyil.

Buna görə də istehlakçılar istifadə etdikləri suların və digər məhsulların plastik qablaşdırmada olmamasına, saxlanma şəraitinin düzgünlüyünə və digər önəmli məsələlərə xüsusi diqqət göstərməlidirlər. Əks təqdirdə kimsə su içib sağlam olmaq, sərinləmək əvəzinə xəstəliklərin məngənəsində boğula bilər...

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən akademiyanın əsas binasının və idman zallarının dam örtüklərinin təmiri işlərinin satın alınması üzrə "Azərbaycan" qəzetinin 24.07.2019-cu il tarixli sayında dərc olunmuş tender elanında sənədlərin qəbulu vaxtı aşağıdakı kimi oxunmalıdır: "İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14 avqust 2019-cu il saat 17:00-a, tender təklifi və bank təminatı sənədlərini 22 avqust 2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 23 avqust 2019-cu il saat 15:00 tarixində açılacaqdır".

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart, 03 aprel, 23 aprel, 08 may, 29 iyun və 16 iyul 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, Lot-2 Ehtiyat hissələrinin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 14 avqust 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 15 avqust 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs: Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az (+99412)431-47-67 (2249).

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Əfqanıstan paytaxtında terror aktları



Əfqanıstanın paytaxtı Kabildə Dağ-Mədən İşləri Nazirliyinin əməkdaşlarını aparan avtobusu partlatmışlar. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, partlayıcı qurğunu motosikldə hərəkət edən intiharçı-terrorçu işə salmışdır. Azı 7 nəfərin həlak olduğu bildirilir. 21 nəfər müxtəlif dərəcəli xəsarət almışdır. Bu barədə Səhiyyə Nazirliyinin nümayəndəsi Vahidulla Mayar məlumat vermişdir.

Bir müddət sonra həmin ərazidə daha bir partlayış baş vermişdir. Təfərrüatlar hələ ki bilinmir.

Partlayışlara görə məsuliyyəti heç bir terrorçu qruplaşma üzərinə götürməmişdir.

## Braziliyada 11 nəfəri sel apardı



Braziliyanın şimal-şərqində leysan yağışlarının törətdiyi daşqın və torpaq sürüşməsi nəticəsində 11 nəfər həlak olmuşdur. Ölüm hadisələri Pernambuko ştatının Resife, Olinda, Abreu və Lima şəhərlərində qeydə alınmışdır.

TRT telekanalının xəbərinə görə, 6 nəfər itkin düşmüşdür.

Daşqınlardan zərər çəkmiş regionlarda məktəblər və bəzi dövlət müəssisələri bağlanmışdır.

## Şimali Koreya kiçikmənzilli raketlərin sınağını keçirdi



Dünən səhər Koreya Xalq Demokratik Respublikasının (KXDR) cənub-şərqində yerləşən Vonsan limanında iki kiçikmənzilli raketin sınağı keçirilmişdir. Birinci mərmi 430 kilometr, ikincisi 690 kilometr məsafə qət etmişdir. Uçuşun hündürlüyü 50 kilometrə çatmışdır. Bu barədə KXDR-in baş qərargahından məlumat verilmişdir.

Ekspertlərin fikrincə, Pxenyanın bu addımı ABŞ Prezidenti Donald Trampla Şimali Koreyanın başçısı Kim Çen In arasında danışıqların bərpa edilməsinə mənfi təsir göstərə bilər.

## Pentaqonun yeni başçısı İranı danışıqlara çağırdı



ABŞ heç bir ilkin şərt irəli sürülmədən İranla danışıqlara hazırdır. Bunu ölkənin yeni Müdafiə naziri Mark Esper bildirmişdir.

Çərşənbə axşamı Pentaqonun başçısı vəzifəsinə təyin olunduqdan dərhal sonra 1990-1991-ci illərdə İran körfəzində müharibədə iştirak etmiş yeni nazir regionda gərginliyin artmasına qarşı çıxış etmişdir. Məsələn, o, Britaniya hökumətinin Cəbəltariqdə İran tankerini, İranın isə bunun əvəzində Britaniya tankerini ələ keçirməsini pisləmişdir. Onun dediyinə görə, "əvəz-əvəz" prinsipi üzrə gəmilərin saxlanması ilə bağlı hadisələr və təxribatlar yolverilməzdir.

"Biz istənilən yerdə və vaxtda heç bir ilkin şərt irəli sürülmədən görüşməyə və danışıqların davam etdirilməsinə hazırıq", - deyə Esper vurğulamışdır.

## Almaniyada və Belçikada anomal istilər



Almaniyanın Meteoroloji Xidməti ölkədə müşahidələr tarixində ən yüksək temperatur qeydə almışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Avropa ölkələri üçün bu yay ərzində növbəti rekord Şimali Reyn-Vestfaliya əyalətinin Qaylenkirhen yaşayış məntəqəsində qeydə alınmışdır. Orada isti 40,5 dərəcəyə çatmışdır.

Sinoptiklər yaxın günlərdə hava temperaturunun yüksələcəyini istisna etmirlər.

Belçikada havanın temperaturu 40,2 dərəcəyə çatmışdır. Yeni rekord ölkənin şimalındakı Lyej şəhərinin Anqler rayonunda qeydə alınmışdır.

Bundan əvvəl Belçikada havanın temperaturunun yüksəlməsi "Eurostar" sürət qatarlarının hərəkətini pozmuşdur.

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Saatlı Rayon Məhkəməsinin sədri İxtiyar Abuşov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apelyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Bəzi bölgələrdə leysan yağacaq, dolu düşəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-24°, gündüz 29-33° isti, Bakıda gecə 23-25°, gündüz 31-33° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir.

Azərbaycanın əsasən şimal və qərb rayonlarında yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti, dağlarda gecə 13-18°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 34-39° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 19-24° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 32-37° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 26-31° isti, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 21-24°, gündüz 30-35° isti, dağlarda gecə 16-19°, gündüz 23-28° isti olacağı ehtimalı var.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 2416
Qiyməti 40 qəpik